12_27 IYUl-QARA.qxd 4/3/2025 10:08 PM Page 1

UNİKAL

№12 (2242) 4 aprel 2025-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az



# Azərbaycan Ermənistanı dalana dirəyib:
## İrəvan "yarımçıq sülh"ə çalışsa da, ram olacaq



Səh.2

# Yüzlərlə ailə Vüqar Qurbanova qarşı üsyanda

*Respublika Endikronoloji Mərkəz tərəfindən I tip şəkər xəstəsi olan uşaqlara verilən sensor əsaslı qlükoza monitorinq sistemi "Sibionics" cihazının verilməsi dayandırılıb. Belə ki, Novruz və Ramazan bayramı ilə bağlı 12 qeyri-iş gününün ardından Mərkəzə müraciət edən xəstələrin yaxınlarına hələ ki, həmin cihazın verilməyəcəyi deyilib. Bu isə I tip şəkər xəstəsi olan uşaqların valideynlərində narazılıq yaradıb. "Sibionics"in verilməsinin dayandırılması səbəbi açıqlanmayıb. Bunun müvəqqəti xarakter daşıdığı deyilir. Eyni zamanda Respublika Endikronoloji Mərkəzdəki yoxlamalarla və həmin yoxlamalar nəticəsində açılan cinayət işi ilə bağlı olduğu güman edilir. Valideynlərin sözlərinə görə, sözügedən cihaz I tip şəkər...*

Səh.7

# "Son hadisələr Ermənistanın reallıqda sülh niyyətində olmadığını göstərir"



*Azərbaycan-Almaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü, deputat Azər Badamov "Unikal"a müsahibə verib. O, Almaniya Prezidentinin Azərbaycana səfərindən, bu səfərin iki ölkə arasında iqtisadi əlaqələrə necə təsir edəcəyindən, Azərbaycan-Ermənistan sülh prosesi ilə bağlı hansı...*

Səh.4

# Azər Qasımlının həbs müddəti uzadıldı



*Siyasi Menecment İnstitutunun direktoru, politoloq Azər Qasımlının barəsində seçilmiş həbs qətimkan tədbirinin uzadılması ilə bağlı istintaq orqanının təqdimatına baxılıb. "Unikal" APA-ya istinadən xəbər verir ki, bu gün Yasamal rayon Məhkəməsində hakim Orxan Məmmədlinin sədrliyi ilə keçirilən prosesdə istintaq...*

Səh.5

# Şərurlu İsfəndiyarın oğlu ilə bağlı yeni qalmaqal və çoban söhbəti...



*Yola salmaq üzrə olduğumuz həftə mediada və sosial şəbəkələrdə Şərurlu İsfəndiyar kimi tanınan tikinti maqnatı, "Şərur MTK"nın sahibi İsfəndiyar Axundovun bir müsahibəsində səsləndirdiyi fikirlər səbəbindən müzakirə mövzusuna çevrilib. Onun "Hərfləri tanımıram, yazı yaza bilmirəm.*

Səh.6

12_27 IYUl-QARA.qxd 4/3/2025 10:11 PM Page 2



# Efirdə İlkinlə Elgiz arasında mübahisə - "Bacarırsan, reytinq ver"



***"Elgizlə izlə" verilişində Əməkdar artist İlkin Əhmədovla aparıcı Elgiz Əkbər arasında mübahisə yaşanıb.***

Axşam.az-ın məlumatına görə, buna səbəb İlkinin şəxsi həyatını gizli saxlamağa çalışması ilə bağlı olub. Elgiz isə bunu ona irad tutub.

İlkin bunu muğam ifaçısı olmağı ilə əlaqələndirib: "Muğam ifaçılarının danışıqlarında, işlətdikləri ifadələrdə, davranışlarında bir balaca da olsa nöqsan olmamlıdır. Abırımızı qoruyuruq. Çox şeyi deyə bilmirik, amma demək lazımdır".

Elgiz onun açıqlamasına belə reaksiya verib: "Sən məgər pis adamsan? Mən səni ictimaiyyətə açıqsözlü biri kimi tanıyıram. Sual verirlər ki, niyə o müğənniləri efirə çağırırsınız? Dövlət və özəl kanallar var. Dövlət kanallar sponsorlardan asılı deyil. Bura isə özəl telekanaldır, biz asılıyıq..."

İlkin Elgizin sözünü kəsməyə çalışıb. Aparıcı İlkinə "Bacarırsan, reytinq ver. Sənət, oxumaq, yaraşıq, sənət səndə" deyə, bildirib.

İlkin isə cavabında "Mən reytinq verirəm" deyə, qeyd edib.

Daim gündəlik başına gələnlərdən söz açan Elgiz burada heç bir qəbahət olmadığını deyib: "Sual verirlər ki, məsələn, Mənzurə Musayevanə niyə tez-tez çağırmırsınız. Gözəl səsi var. O, "duzdur", səmimidir. Bax, burada olanlar, danışdız, zəriniz töküldü? Məndən çox özündən danışan adam var? Yaşadıqlarımı danışıram, hamı da paylaşır. Amma eyni Elgizəm...".

İlkin yenidən Elgizin sözünü kəsərək "Söhbət Mənzurəkimilərdən getmir. Mən başqa şeydən danışıram. Efirlərdə bayağı mahnı oxuyanlardan, geyinənlərdən söhbət gedir" deyə, vurğulayıb.

Elgiz fikirini belə tamamlayıb: "Bizim müzakirə etdiyimiz mövzular həyatda qarşılaşdığımız hadisələrdir. Bu adamlar "lal balıq" olmamalıdırlar, vətəndaş mövqelərini ortaya qoymalıdırlar. Dava demirəm, amma verilişlərdə həyat hekayənizdən, yaşadıqlarınızdan danışasınız. Qorxmayın".

# "Namiq mənim səviyyəmdə deyil" - Aşıq Mübariz Camaloğlu

***Aşıq Mübariz Camaloğlu ilə Namiq Fərhadoğlu arasında qalmaqal yaşanıb.***

Mübariz bu barədə "Tarixin bir günü" verilişində danışıb. O deyib ki, Namiqi aşıq gözündə görmür: "Mən aşıq oğlu aşığam. O, dünən sənin verilişində deyir. Mən 20-30 ildir bu sənətdəyəm, deyirəm ki, indi əlinə saz götürənlərin heç biri aşıq deyil. Aşıq sənətini atamdan görmüşəm, yolu çox uzanır. Mən ondan danışmaq, adını çəkmək istəmirəm.

Fikirləşirdim ki, Həccə gedib düzəlib gələr, getdi, daha da tərsinə oldu. Dedim ki, arxamdan danışmayın, sizi reklam etməyəcəyəm. Hərənin öz yolu var, mənim yoluma qarışmasınlar, öz işimlə məşğulam. Heç kimlə işim yoxdur. Daha heç birinizi reklam etməyəcəyəm.



Evin ucuzu olmur. Öz zəhmətimlə qazanmışam. O, nəyi qazanıb? O efirə gəlsə, mən çıxıb gedərəm. Mənim səviyyəmdə, şəxsiyyətimdə deyil. Əvvəldən onu aşıq kimi görmürəm. Davamız, söz-söhbətimiz olub. Sonuncu dəfə dedim ki, efirlərdə mənimlə işin olmasın". (Bizim.Media)



# "Temu" dələduzluqla məşğuldur - Nura Suri

***Müğənni Nura Suri "Temu" şirkətindən şikayətçidir.***

"Unikal" xəbər verir ki, bu barədə ifaçı sosial şəbəkədə məlumat verib.

"Temu" şirkəti əməlli dələduzluqla məşğuldur. Sosial şəbəkələrdə bu mövzuda tez-tez statuslar görürdüm. Dünən proqramı yüklədim və şahidi oldum. Guya ki, hədiyyə və bonuslar verirlər, amma açıq-aydın insanları aldadırlar. Dünən bir blogerin paylaşımını gördüm, "Temu"nun hədiyyə verdiyini yazıb, link qoymuşdu. Linkə keçid etdim və eyni paylaşımı mən də etdim ki, görüm bu doğrudur ya yox? Nəticədə, əmin oldum ki, bu bir dələduzluqdur. Beləliklə, proqramı necə yükləmişdimsə, elə də sildim" deyə, Nura bildirib.

# Röya: "Onları qucaqlayıb öpdüyüm üçün pencəklərini təmizləməliyəm"



***Xalq artisti Röya Ayxanla bəstəkar-müğənni və aparıcı Murad Arifin səmimi anları diqqət çəkib.***

"Səs Azərbaycan" layihəsinin kulisində qeydə alınan görüntüdə pop ulduzun Murad Arifin pencəyini təmizləmək üçün can-fəşanlığı əks olunub.

"Onları qucaqlayıb, öpdüyüm üçün pencəklərini təmizləməliyəm" deyən Röya marağa səbəb olub.

# Aynişanın "Hade" obrazı təəccübləndirdi

***Əməkdar artist Aybəniz Haşımovanın bloger qızı Aynişan Quliyeva instaqram hesabında paylaşımı ilə marağa səbəb olub.***

O, "Klon" serialının əsas qəhrəmanı olan "Hade" obrazı ilə izləyicilərinin marağına səbəb olub.



# Elza efirdə onun adını eşidib özündən çıxdı

***Əməkdar artist Elza Seyidcahan ad çəkməyən İntiqam Kərimov haqda qalmaqallı açıqlamalar edib.***

"Xəbərin var?" verilişində qonaq olan Seyidcahan Kərimovun adını eşidib əsəblərinə hakim ola bilməyib.



12_27 IYUl-QARA.qxd 4/3/2025 10:12 PM Page 3



# Vüsal Aslanov bu xanımı departament rəisi təyin etdi



***"Bakı Metropoliteni" QSC-də yeni təyinat olub.***

"Unikal" xəbər verir ki, QSC-nin sədri Vüsal Aslanovun əmri ilə Cəmilə Hidayət qızı Xəlilova "Bakı Metropoliteni" QSC-də İnsan resursları və layihələrin idarə edilməsi departamentinin rəisi vəzifəsinə təyin edilib.

Qeyd edək ki, C.Xəlilova bu təyinatadək "SOCAR AQS" MMC-nin İnsan kapitalı şöbəsinin meneceri vəzifəsində çalışıb.

# Dövlət xətti ilə 1300-ə yaxın ipoteka krediti verilib



***Bu ilin I rübündə Azərbaycanda İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına 124,9 milyon manat məbləğində 1 251 ipoteka krediti rəsmiləşdirilib ki, onun da 41,9 milyon manatı (508 kredit) güzəştli ipoteka kreditlərinin payına düşür.***

"Unikal" bu barədə Fonda istinadən xəbər verir. Məlumata görə, ümumilikdə, 2006-cı ildən indiyə qədər Fondun vəsaiti hesabına 3,4 milyard manatdan çox ipoteka krediti verilib ki, onun da 988,5 milyon manatı güzəştli ipoteka kreditləridir. Verilmiş kreditlər hesabına 53 829 ailə özünün mənzil şəraitini yaxşılaşdırıb. İpoteka kreditlərindən faydalananların 67%-i gənclər və gənc ailələrdir.

Şəxsi yığımları yetərli olmayan əhalinin daha aşağı ilkin ödənişlə ipoteka kreditindən faydalanmasını təmin etmək məqsədilə bu il aprelin 1-nə Fond ümumilikdə 107,4 milyon manat məbləğində 1 211 zəmanətli ipoteka krediti verib.

Dövr ərzində ipoteka bazarında müvəkkil banklar arasında rəqabət mühitinin gücləndirilməsi davam etdirilib, ipoteka kreditləri üzrə maksimal faiz dərəcəsinin illik 8 % müəyyən olunmasına baxmayaraq, bir sıra banklar tərəfindən daha aşağı faiz dərəcələri ilə ipoteka kreditlərinin verilməsi davam etdirilib. Nəticədə, yanvar-mart aylarında adi ipoteka kreditləri üzrə orta illik faiz dərəcəsi 7,5 % təşkil edib. İpoteka və Kredit Zəmanət Fondu 2006-cı ildən etibarən ölkədə uzunmüddətli ipoteka kreditləşməsinin maliyyələşdirilməsini həyata keçirir. Fond Ölkə Prezidentinin 22 iyun 2016-cı il tarixli fərmanı ilə təsdiq edilmiş "İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası"na uyğun olaraq fəaliyyət göstərir.

# Hakan Fidan Fransada Bakı-İrəvan münasibətlərini müzakirə etdi

***Fransa və Türkiyənin xarici işlər nazirləri Jan-Noel Barrot və Hakan Fidan Parisdə keçirilən görüşdə Ermənistan-Azərbaycan münaqişəsini müzakirə ediblər.***

"Unikal" xəbər verir ki, bu barədə xarici KİV məlumat yayıb. "Nazirlər vurğulayıblar ki, Ermənistan-Azərbaycan münasibətlərinin iki dövlətin ərazi bütövlüyü və suverenliyinə lazımi hörmətlə yanaşılması ilə normallaşması Cənubi Qafqazın sülh, inteqrasiya və əməkdaşlıq regionuna çevrilməsinə imkan verməlidir", - deyə məlumatda bildirilir.

***Ağarza Elçinoğlu***

# Tikinti oliqarxlarının həbs dalğası başlayır

## Qanunsuzluqları ilə vətəndaşların canını boğaza yığan MTK rəhbərlərini gözləyən şok... - İlginc təfərrüatlar!

***Bu günlərdə Alatavada qanunsuz söküntü işləri ilə bağlı saxlanılan "Melissa Group" tikinti şirkətinin rəhbəri Qalib Məmmədov həbs edildi. Onun həbsi ilə bağlı təqdimata Xətai rayon Məhkəməsində hakim Aygün Həsənovanın sədrliyi ilə baxılıb.***

İstintaq orqanının təqdimatı təmin olunub və Qalib Məmmədov barəsində 1 ay müddətə həbs qətimkan tədbiri seçilib.

Qeyd edək ki, Bakı şəhəri, Yasamal rayonu, Alatava ərazisində söküntü işləri aparan tikinti şirkətinin iş icraçısı və ekskavator sürücüsü də saxlanılıb.

Alatavadakı olayın ardından isə Bakıda bir çox başqa MTK-ların da vətəndaşlara qarşı qanunsuzluqları ilə bağlı xəbərlər intensivləşib. Məsələn, araşdırmaçı jurnalist Hicran Həmidova Xətai rayonunda 18 mənzilli iki mülkün barbarca dağıdıldığını bildirib və əlavə edib: "İki aydır nə cinayət işi qaldıran var, nə də həbs edilən..." Onun bildirdiyinə görə, "Konsern İnterturan" MMC-nin sahibi Saday Əhmədovun rayonun Həzi Aslanov qəsəbəsində tikdiyi binadan 10 il əvvəl ev satın alıb. Lakin Əhmədov müvafiq məhkəmə qərarı olmadan, rəsmi bildiriş, alternativ mənzil vermədən, torpağını baha satmaq məqsədilə evi yerlə-yeksan eləyib. Şikayətçinin araşdırması nəticəsində məlum olub ki, S.Əhmədov daha əvvəl iki bankdan kredit götürüb, girov predmeti olan əmlaklarının dəyərini xeyli şişirdərək bankları özünə "borclandırıb": "Uzun illər ölkədən çıxışına "STOP" qoyulmuşdu. Banklar ona pul verməyəndən sonra mənim kimi vətəndaşları hədəf alıb: özünə aid 4 ha ərazidə torpaq və ev satır, ehtiyacı olanları alır, bir müddət sonra "ucuz satdığıma qərar verdim", deyib əmlakı geri tələb edir. Çox adamla münaqişədədir. Bu məntiqlə banklara ehtiyac yoxdur, hər kəs bir-birinin pulunu alıb sərmayə eləsin, 10-15 il sonra da qəpiyinəcən qaytarsın. Dələduzluğa görə həbs edən də yoxdur".

Bu arada Bakı Şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsi paytaxtın Yasamal rayonu, Mirzə Fətəli Axundov küçəsi, 175-177 ünvanında "Kəpəz MTK"ya məxsus hündürmərtəbəli yaşayış binasının dam hissəsində aparılan işlərlə bağlı açıqlama yayıb. Komitədən bildirilib ki, məsələ ilə bağlı bu gün qurum tərəfindən əraziyə baxış keçirilib və razılaşdırılmamış işlərin həyata keçirildiyi müəyyən edilib.

Qeyd olunub ki, aparılan işlər mövcud qanunvericiliyin tələblərinə zidd aparıldığı üçün Baş İdarə tərəfindən dayandırılıb və aktlaşdırılıb. Həmçinin qanunvericiliyin tələblərinə uyğun olaraq yerli səviyyədə şəhərsalma nəzarəti çərçivəsində müvafiq nəzarətin təmin edilməsi üçün aidiyyatı üzrə dövlət qurumlarına müraciət edilib.

Onu da əlavə edək ki, yerli mətbuatda yayılan məlumatlara görə, "Kəpəz MTK" sabiq millət vəkili Mahir Aslanova məxsusdur. Bundan başqa, onun biznesinə "Happy inn" hotel, "Kəpəz Hospital" və "Kəpəz Group"un da daxil olduğu bildirilir.

"Kəpəz MTK" ilə bağlı daha öncə də bir sıra şikayətlər olub.

Bakıda daha bir tikinti şirkəti və sakinlər arasında narazlıq isə Nizami rayonunda yaşanır. Belə ki, paytaxt sakini Nicat Şəmiyev iddia edir ki, 36 ildir yaşadıqları Nizami rayonu Məmməd Səid Ordubadi küçəsi 7 ünvanındakı yaşadıqları fərdi ev plana düşür. Ev 8 otaqdı və kvadratmetr sahəsi də böyükdür. Bir müddətdir ki, ərazidə çoxmərtəbəli bina inşa etmək istəyən ''ORBİTA MTK'' tikinti şirkəti bəzi sakinlərlə razılığa gəlsələr də, Şəmiyevlər ailəsi və digər 4 ailə ilə razılığa gələ bilmirlər.



Nicat Şəmiyev deyir ki, ata- anası və 3 qardaşı ümumilikdə 12 nəfər həmin evdə yaşayırlar. Şirkət isə onları kirayə mənzilə çıxarmağa və yerində tikəcəkləri binadan isə 4 otaqlı ev verəcəklərinə razılaşıblar. Bu səbəbdən də onlar evlərinin sökülməsini istəmirlər və ''ORBİTA'' MTK-nın qərarı ilə razılaşmırlar.

''ORBİTA'' MTK-nın köçürmə məsələləri üzrə baş məsləhətçisi Söhrab Əhmədov deyib ki, onlar evlərin kvadratmetr sahəsini obyektiv hesablayıblar və narazı olan 4 ailəyə görə, bir il yarımdır ki, tikinti gecikir.

Qeyd edək ki, tərəflər razılığa gəlmədikləri üçün məhkəməyə də müraciət ediblər. Bir il yarımdır ki, məhkəmə çəkişməsi gedir. Son qərar da məhəkəmə tərəfindən veriləcək.

Sumqayıtda isə "Mahal" MMC tikinti şirkətinin sakinləri evdə ola-ola mənzilləri sökdüyü iddia edilir. Belə iddia ilə şəhər sakinləri çıxış ediblər. Belə ki, Sumqayıtın 4-cü məhəlləsində "Mahal" MMC tərəfindən aparılan söküntü işləri ciddi narazılıq doğurub.

Sakinlər bildiriblər ki, evdə olduqları halda onların mənzilləri qanunsuz şəkildə sökülüb və tikinti şirkəti hələ də onlara lazımı kompensasiyanı ödəməkdən imtina edir. Hazırda tərəflər arasında gərginlik yaranıb. Mübahisənin kökündə isə kompensasiya məbləğinin azlığı dayanır. Sakinlərin sözlərinə görə, təklif olunan məbləğ onların yeni mənzil əldə etməsi üçün yetərli deyil.

"Mahal" MMC tikinti şirkətinin sədr müavini Ruslan Məmmədov bildirib ki, hazırda söküntü aparılan binada cəmi 3-4 ailə qalıb. Təklif olunan pul bazar qiymətlərinə uyğundur, lakin sakinlər bu məbləğlə razılaşmırlar. O, sakinlərin evlərinin qanunsuz sökülməsi iddiasını isə rədd edib. Məsələ ilə bağlı tərəflər arasında məhkəmə çəkişməsi davam edir. Bu isə sakinlər üçün ədalətli həll yolunun tapılıb-tapılmayacağını müəyyənləşdirəcək.

MTK-ların özbaşınalıqları ilə bağlı belə iddiaların siyahısını sonsuzadək uzatmaq olar. Əldə etdiyimiz məlumata görə, tikinti şirkətlərinin qanunsuz addımları artıq hökumət dairələrinin də səbrini daşırıb və onlar barəsində hüquqi müstəvidə sərt addımların atılmasına qərar verilib. "Melissa Group" tikinti şirkətinin rəhbəri Qalib Məmmədovun həbsi də bu müstəvidə qiymətləndirilməlidir. İstisna deyil ki, proses sadəcə onun həbsi ilə yekunlaşmayacaq və qanunsuzluğa qol qoyan digər tikinti oliqarxları da oxşar aqibəti yaşamalı olacaq.

***Sənan Mirzə***

12_27 IYUl-QARA.qxd 4/3/2025 10:13 PM Page 4



# Azərbaycan Ermənistanı dalana dirəyib:
## İrəvan "yarımçıq sülh"ə çalışsa da, ram olacaq

***Azərbaycan Prezidenti İlham Əliyev ötən gün Almaniya Prezidenti Frank-Valter Ştaynmayer ilə mətbuata bəyanatında Azərbaycanın və Ermənistanın sülhün əldə edilməsində mövqelərinin bir-birinə kifayət qədər yaxınlaşdığını bildirib.***

Dövlət başçısı sülh müqaviləsinin mətninin 17 paraqrafdan ibarət olduğunu və tam razılaşdırıldığını deyib: "Azərbaycan burada hər hansı bir əlavə şərt irəli sürmür. Bizim şərtlərimiz Ermənistan üçün bəllidir, yenilik deyil. Bu şərtləri biz uzun müddət ərzində irəli sürürük. Ancaq Ermənistandan bu günə qədər hər hansı bir ciddi cavab almamışıq. Nədən ibarətdir bu? Birinci, ATƏT-in Minsk qrupu ləğv edilməlidir.



İkinci məsələ Ermənistanın konstitusiyası ilə bağlıdır. Ermənistan konstitusiyasında Ermənistan müstəqillik aktına istinad var. O konstitusiyanın tərkib hissəsidir. Orada isə Azərbaycanın hüquqi, tarixi ərazisi Ermənistanla birləşməsi haqqında müddəa var və bu, bizə qarşı açıq ərazi iddiası sayılır. Ona görə Ermənistan konstitusiyasından bu bəndin çıxarılması bizim legitim tələbimizdir. Bu iki şərt təmin olunandan sonra sülh müqaviləsini imzalanmaq üçün heç bir maneə olmayacaq. Necə deyərlər, top Ermənistanın tərəfindədir. Əgər Ermənistan doğurdan da sülh müqaviləsini imzalamaq istəyirsə, Azərbaycanın bu iki legitim şərtini qəbul etməlidir", - deyə Prezident İlham Əliyev əlavə edib.

Ermənistan Respublikasının ədliyyə naziri Srbuhi Qalyan isə dünən mətbuata verdiyi açıqlamasında bildirib ki, konstitusiyanın yeni mətni üzərində işləyirlər. O, bu prosesin 8-10 aydan tez başa çatmayacağını vurğulayıb.

Məsələ ilə bağlı "Unikal"a açıqlama verən politoloq Qabil Hüseynli bildirib ki, Ermənistanın konstitusiyasının dəyişdirilməsi doğrudan da, ciddi işdir: "Açığı desək, ermənilər son zamanlarda bir çox məsələlərdə bizi başa düşüblər. Həmçinin bu məsələdə də şərtimizin həyata keçirilməsi üçün addımlar atmağa başlayıblar. Onlar maksimum müddət kimi götürüb 8-10 ay deyirlər, amma gecə-gündüz işləsələr, 5-6 ay ərzində konstitusiya layihəsinin mətnini hazırlaya bilərlər. Bundan sonra, onlar referendum da keçirməlidirlər. Referendumun keçirilməsi də təxminən 2-3 ay vaxt aparır. Buna qədər ermənilər referendumun keçirilməsini və konstitusiyaya dəyişikliyin edilməsi işlərinin 2027-ci ilədək yekunlaşacağını bildirirdilər.

Artıq 2027-ci ildən 8-10 aylıq bir müddətə qədər eniblər. Bu, özü də çox böyük bir nailiyyətdir. Eyni zamanda, Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayerin bu məsələyə ciddi yanaşmasının nəticəsidir. Sülh müqaviləsi imzalandıqdan sonra Ermənistan və Azərbaycan arasında delimitasiya və demarkasiya işləri də davam etdirilə bilər", - deyə Q.Hüseynli qeyd edib.

"Son dövrlər Ermənistanın davamlı olaraq şərti sərhədlərimizdə təxribatlar törətməsinin şahidi oluruq". Bunu Bakıvaxtı.az-a deputat Ceyhun Məmmədov Ermənistan Silahlı Qüvvələrinin Azərbaycan Ordusunun mövqelərini atəşə tutması ilə münasibət bildirərkən deyib. Deputat vurğulayıb ki, Ermənistan indiki şəraitdə atəşkəsi pozmaqla, təxribatlara əl atmaqla müxtəlif məqsədlər güdür: "Ermənistan bunu nə üçün edir? İlk növbədə bunun səbəblərini təhlil etməliyik. Ermənistan özü təxribatlara əl atsa da, bunu təkzib edir, əksinə, Azərbaycan tərəfini atəşkəsi pozmaqda suçlayır. Ermənistanın əsas hədəfi və məqsədi odur ki, İrəvan hökuməti yenidən Azərbaycanı hədəfə gətirmək istəyir. Bunun üçün bölgədə yeni bir eskalasiya yaradır. Ermənistan əvvəlki kimi Qərbin dəstəyini ala bilmir. Söhbət xüsusən ABŞ-dən gedir. Nəzərə alaq ki, ABŞ ilə Avropa İttifaqı arasında da müəyyən məsələlərdə fikir ayrılığı var. Ermənistanın daxilində də narahatlıq var. Ona görə də beynəlxalq ictimaiyyətin diqqətini Ermənistana, Cənubi Qafqaza cəlb etmək, ermənilərin yenidən "təcavüzə məruz qalması" təsəvvürünü yaratmaq üçün bu cür təxribatlara əl atırlar. Bunun alt qatdakı hədəfləri isə əlavə maliyyə vəsaiti almaqdır. Həmçinin, yeni silahlar əldə etməkdir. Eyni zamanda siyasi dəstəyi daha da gücləndirməkdir".

Müsahibimiz bəyan edib ki, Ermənistanın digər məqsədi isə Azərbaycana təzyiqi artırmaqla, bizi yarımçıq sülh müqaviləsini imzalamağa məcbur etməkdir. C.Məmmədov qeyd edib ki, Ermənistan rəsmiləri müxtəlif görüşlərdə Azərbaycan haqqında yanlış düşüncələr yaratmağa cəhd göstərirlər. Elə bir görüntü yaratmağa çalışırlar ki, guya Ermənistan sülh istəyir, sülh tərəfdarıdır, Azərbaycan tərəfi isə sülhə hazır deyil, sərhəddə atəşkəsi pozur, prosesə mane olur və s. Əslində isə reallıq tamam başqadır.

Deputat Ermənistan daxilində siyasi gərginliyin hökm sürdüyünü deyib. Onun sözlərinə görə, daxildəki gərginliyi azaltmaq, diqqəti başqa yönə çəkmək məqsədi ilə "Azərbaycan bizə hücum edir" təhlükəsini formalaşdırmağa çalışırlar. "Azərbaycan 2020-ci ildən bu yana sülhlə bağlı öz şərtlərini, tələblərini Ermənistan tərəfinə təqdim edib. Ermənistan sülh müqaviləsini imzalamaq üçün Azərbaycanın şərtlərini qeyd-şərtsiz yerinə yetirməlidir. Ermənistan isə bunu etmək istəmir, bütün bunların fonunda növbəti avantüraya gedir. Burada Fransanın da rolunu qeyd etməliyik", - deyə Ceyhun Məmmədov əlavə edib.

***M.İbrahimli***



# Aqrar Xidmətlər Agentliyində əməliyyat keçirildi - Vəzifəli şəxslər saxlanıldı

***Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin Dövlət texniki nəzarət şöbəsinin müdir müavini Rəşad Yolçiyev və həmin Nazirliyin 1 saylı Dövlət Aqrar İnkişaf Mərkəzinin Texniki nəzarətin təşkili sektorunun müdiri Arif Həsənovun xidməti vəzifələrinin icrası zamanı ayrı-ayrı şəxslərdən rüşvət almaları barədə daxil olmuş məlumat əsasında keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində cinayət işi başlanıb.***

Baş Prokurorluğun Mətbuat xidmətindən "Unikal"a bildirilib ki, əməliyyat-istintaq tədbirləri ilə Rəşad Yolçiyev və Arif Həsənovun qabaqcadan əlbir olaraq 2022-2025-ci illər ərzində ölkə ərazisinə gətirilən kənd təsərrüfatında istifadə edilən və digər təyinatlı nəqliyyat vasitələrinin dövlət qeydiyyatına alınması, dövlət qeydiyyat nişanının verilməsi, texniki baxışın keçirilməsi, müvafiq şəhadətnamələrin təqdim edilməsi və digər məqsədlərlə onlara müraciət etmiş çoxsaylı şəxslərdən müxtəlif məbləğlərdə pul vəsaitini rüşvət qismində almalarına əsaslı şübhələr müəyyən edilib.

Əməliyyat-axtarış tədbirləri ilə vəzifəli şəxslərin xidməti otaqlarında aparılmış axtarışlar zamanı iş üçün əhəmiyyət kəsb edən sübutlar aşkar edilərək götürülüb.

İş üzrə toplanmış ilkin sübutlar əsasında Rəşad Yolçiyev və Arif Həsənova Cinayət Məcəlləsinin 311.3.1, 311.3.2 və 311.3.3-cü (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən təkrarən külli miqdarda rüşvət alma) maddələri ilə ittiham elan edilmiş, barələrində istintaq orqanının vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında Binəqədi Rayon Məhkəməsinin qərarı ilə ev dustaqlığı (əsas) və vəzifədən kənarlaşdırma (əlavə) qətimkan tədbirləri seçilib.

Hazırda cinayət işi üzrə ibtidai istintaq davam etdirilir.

# Sahil Babayev yüksək vəzifəli şəxsləri işdən çıxardı

***Maliyyə Nazirliyində iki yüksək vəzifəli şəxs işdən azad edilib.***



"Unikal" Baku-post.az-a istinadən xəbər verir ki, qurumun Aparatının strukturunda və ştat vahidlərinin struktur bölmələri üzrə bölgüsündə təkmilləşdirmələr aparılıb.

Eyni zamanda, Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidmətinin rəisi Elman Piriyev və nazirlik yanında Dövlət Xəzinədarlıq Agentliyinin 1 saylı Xəzinədarlıq İdarəsinin rəisi Nadir Qarayevin dövlət qulluğuna öz arzuları ilə xitam verilib.

Məlumat Maliyyə Nazirliyinin İctimaiyyətlə əlaqələr və vətəndaş müraciətləri ilə iş şöbəsi tərəfindən təsdiq edilib.

12_27 IYUl-QARA.qxd 4/3/2025 10:13 PM Page 5



# Prezidentə təbriklər gəlməkdə davam edir

***Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev Prezident İlham Əliyevə təbrik məktubu ünvanlayıb.***



”Unikal” xəbər verir ki, məktubda deyilir: ”Möhtərəm cənab Prezident. Sizi müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi çatdırıram. Ramazan ayı insanların qəlbini və düşüncəsini nurlandıran, onları birlik, mənəvi saflıq və əxlaqi dəyərlərə dəvət edən mübarək aydır. Bütün İslam aləmi, o cümlədən Türk dünyası üçün xüsusi əhəmiyyət kəsb edən bu müqəddəs bayram Türk Dövlətləri Təşkilatının əsas prinsiplərindən olan birlik, sülh və qardaşlıq dəyərlərini təşviq edir.Bu əlamətdar bayram münasibətilə Zati-alinizə və dost, qardaş Azərbaycan xalqına möhkəm cansağlığı, xoşbəxtlik və rifah diləyirəm”.

Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisi Prezident İlham Əliyevə təbrik məktubu ünvanlayıb. Təbrikdə deyilir: ”Zati-aliləri. Bütün dünya müsəlmanlarının qeyd etdikləri Ramazan bayramı münasibətilə Sizə və dəyərli xalqınıza ən səmimi təbriklərimi çatdırmaq mənim üçün böyük şərəfdir. Allah-Taaladan oruclarımızı, dualarımızı və xeyirxah əməllərimizi qəbul etməsini və İslam ümmətinin daha parlaq və təhlükəsiz gələcəyi üçün səylərimizdə bizə öz xeyir-duasını nəsib etməsini diləyirəm. Hörmətli cənab Prezident, bu mübarək bayram münasibətilə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost ölkələrimizin davamlı olaraq inkişaf etməsini arzulayıram. Bayramınız mübarək!”.

Tunis Respublikasının Prezidenti Kays Sayid Prezident İlham Əliyevi təbrik edib. Təbrikdə deyilir: ”Hörmətli cənab Prezident. Mübarək Ramazan bayramı münasibətilə Zati-alinizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram. Sizə möhkəm cansağlığı və səadət, qardaş Azərbaycan xalqına firavanlıq bəxş etməsi üçün Uca Allaha dua edirəm. Bu fürsətdən istifadə edərək, xalqlarımızın rifahı və mənafeyi naminə ölkələrimiz arasında qardaşlıq münasibətlərinin möhkəmləndirilməsi, mövcud əməkdaşlıq əlaqələrinin genişləndirilməsi üçün birgə fəaliyyətimizi davam etdirməkdə qəti qərarlı olduğumu Zati-alinizə bir daha bildirməkdən məmnunam. Ulu Tanrı bizə və bütün İslam ümmətinə xeyir-bərəkət, firavanlıq nəsib etsin!”.

# Əli Əsədov yeni qərar imzaladı



***Nazirlər Kabineti “Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyində Bakı Hərbi Kollecinin, Gəncə Hərbi Kollecinin və Naxçıvan Hərbi Kollecinin yaradılması haqqında” 22 may 2024-cü il tarixli qərarında dəyişiklik edib.***

“Unikal” xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov yeni qərar imzalayıb.

Qərara əsasən, bundan sonra adı çəkilən hərbi kolleclərdə orta ixtisas təhsilini başa vuran kursantlara müdafiə nazirinin əmri ilə “gizir” hərbi rütbəsi ilə yanaşı ”miçman” hərbi rütbəsi də veriləcək. Bunun üçün hər 3 kollecin nizamnamələrinə dəyişiklik olunub.

# Orxan Ağayev istintaqa çağırıldı

***Baş Prokurorluq xaricdə yaşayan bloger Orxan Ağayevi istintaqa dəvət edib.***



”Unikal” xəbər verir ki, bu barədə İctimai Televiziyadan məlumat verilib.

Təqsirləndirilən şəxs, 1986-cı il təvəllüdlü Ağayev Orxan Məhəmmədəli oğluna izah edilir ki, o, şəxsiyyətini təsdiq edən sənədlə birlikdə 23 aprel 2025-ci il tarixdə, saat 12:00-da Baş Prokurorluğun İstintaq idarəsinin inzibati binasına gəlməlidir.

Bildirilib ki, Ağayev Orxan Məhəmmədəli oğlunun Cinayət Məcəlləsinin 12.1, 34.2, 220.2 və 12.1, 34.2, 281.2-ci maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunması barədə 07 sentyabr 2020-ci il tarixli qərar qəbul edilib.

Həmin qərara əsasən, onun 19 aprel 2019-cu il tarixdən 07 avqust 2019-cu il tarixədək olan müddətdə qabaqcadan əlbir olduğu, o cümlədən qanuni qüvvəyə minmiş məhkəmə hökmü ilə məhkum olunmuş şəxslərlə birlikdə “youtube” və “facebook” sosial media hesablarında yerləşdirdiyi videoçarxlarda Azərbaycan Respublikasında hakimiyyətin zorla ələ keçirilməsinə, zorla saxlanılmasına, Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn, habelə hakimiyyət nümayəndələrinin qanuni tələblərinə fəal şəkildə tabe olmamaqla və zorakılıqlarla müşayiət olunan kütləvi iğtişaşlar etməyə qəsdən açıq çağırışlar etməsinə və bu cür məzmunlu materialları yaymasına əsaslı şübhələr müəyyən edilib.

Ağayev Orxan Məhəmmədəli oğlu istintaqdan qaçıb Azərbaycan Respublikası hüdudlarından kənarda gizləndiyindən ona ittiham elan edilməsi mümkün olmadığı üçün 07 sentyabr 2020-ci il tarixli qərarla barəsində axtarış elan edilib və Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin 07 sentyabr 2020-ci il tarixli qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Cinayət-Prosessual Məcəlləsinin 54-2.1.7-ci və 467-13.3-cü maddələrinin tələblərinə əsasən, təqsirləndirilən şəxs Orxan Ağayevə xəbərdarlıq edilir ki, çağırışa gəlmədiyi halda Cinayət-Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada barəsində qiyabi icraat açıla bilər və barəsində qiyabi hökmün və ya məhkəmənin digər yekun qərarının çıxarıla biləcəyi ilə nəticələnə bilər.

# Rəsmi Bakı Fransanın xarici işlər nazirinə cavab verib

***2 aprel 2025-ci il tarixində Fransanın Avropa və xarici işlər naziri Jan Noel Baronun Milli Assambleyanın Xarici İşlər Komissiyasında çıxışı zamanı Azərbaycan-Ermənistan sülh prosesi və erməni əsilli şəxslərin məhkəmə işi ilə bağlı səsləndirdiyi iddiaları qətiyyətlə rədd edirik.***

“Unikal” xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə bildirib. Onun sözlərinə görə, Azərbaycan ərazilərinə qarşı iddiaların mövcud olduğu Ermənistan konstitusiyasının dəyişdirilməsi kimi son 2 ildən artıq müddətdə müzakirə edilən legitim tələbin sual altına alınması və bunun yeni şərt kimi təqdim edilməsi qəbuledilməzdir: ”Əgər Fransa iddia etdiyi kimi həqiqətən də sülh sazişinin tezliklə imzalanmasını dəstəkləyirsə, o zaman Ermənistan tərəfindən müvafiq addımların atılmasını təşviq etməlidir”.

Müharibə cinayətləri, etnik təmizləmə, hərbi təcavüz, işgəncə və digər ağır cinayətlərdə ittiham olunan və ya məhkum olunmuş erməni əsilli şəxslərin azadlığa buraxılması çağırışlarına gəldikdə, XİN rəsmisi vurğulayıb ki, bu cinayətləri araşdırmaq və mühakimə etmək Azərbaycanın haqqıdır: ”BMT-nin İnsan Hüquqları Şurasının Əsassız Həbslər üzrə İşçi Qrupunun 13 mart 2025-ci il tarixində dərc olunmuş rəyi də bunu bir daha təsdiqləyib və məhkəmə prosesinə qarşı aparılan qarayaxma kampaniyasının əsassız olduğunu sübut edib.



Ümumiyyətlə, digər ölkələrdə məhkəmə prosesinə müdaxilə cəhd edən Fransa tərəfinin ilk növbədə Fransada siyasi təqibləri və müxtəlif aksiyalarda etirazçıların öldürülməsi, Fransanın neokolonial siyasəti nəticəsində dənizaşırı ərazilərdə yerli əhaliyə qarşı işgəncələri, Fransa parlamentində rüşvətxorluq və korrupsiya hallarının yayılması kimi faktları araşdırması daha uyğun olardı. Misal üçün, eyni iclasda bir deputatın Fransada məhkəmə sistemindən siyasi rəqiblərə qarşı təzyiq vasitəsi kimi istifadə edildiyi halda qanunun aliliyi ilə bağlı digər dövlətlərə müdaxilənin qəbuledilməzliyi ilə bağlı sualına cavabda Fransa nazirinin Fransa məhkəməsinin qərarını şərh edə bilməyəcəyi cavabı da Fransa tərəfinin ikili standartlarının bir göstəricisidir.

Fransadan sülhə xidmət etməyən və regionda sabitliyi pozan addımlarına son qoymağı tələb edirik”.

Baş redaktor:
**Zaur Əhməd**

Turanbank” ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və “Futbol+” servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

# Antiterror əməliyyatından sonra İşxanyanın Xankəndidəki hotelində silah-sursat aşkarlanıb

***Azərbaycanın dövlət suverenliyi təmin olunduqdan sonra 2023-cü ilin oktyabrında təqsirləndirilən şəxs David İxşanyana məxsus “Park” adlı hoteldə silah-sursat və rabitə vasitələri aşkarlanıb.***

”Unikal” xəbər verir ki, aprelin 3-də Bakı Hərbi Məhkəməsində davam etdirilən məhkəmə prosesində dövlət ittihamçısı təqsirləndirilən şəxsə həmin silah-sursatla bağlı sual ünvanlayıb. Təqsirləndirilən şəxs rabitə vasitələrinin hotelə məxsus olduğunu deyərək silah-sursatla bağlı məsələdə isə digər erməni sakinləri günahlandıraraq deyib: “Mənim fikrimcə, o hadisədən bir həftə əvvəl Ağdərədən gəlmiş sakinlər o hoteldə məskunlaşmışdı. Ehtimal ki, (silah-sursatı - red.) onlar qoyublar”.



Qeyd edək ki, Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşlarının məhkəməsi davam etdirilir.

# Sahibə Qafarova Venesuela Milli Assambleyasının sədr müavini ilə görüşüb

***Milli Məclisin sədri Sahibə Qafarova Venesuela Bolivar Respublikası Milli Assambleyası sədrinin müavini, Venesuela-Azərbaycan parlamentlərarası əlaqələr üzrə dostluq qrupunun rəhbəri Amerika Valentina Peres Davila ilə görüşüb.***

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən "Unikal"a verilən xəbərə görə, görüşdə Azərbaycan ilə Venesuela arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq əlaqələrinin mövcud olduğu qeyd edilib. Söhbət zamanı bu il ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümünün tamam olduğu, əlaqələrimizin daha da dərinləşdirilməsi üçün geniş imkanların olduğu bildirilib. Qeyd edilib ki, qarşılıqlı səfərlər bu imkanların müzakirəsi baxımından faydalıdır. İkitərəfli əlaqələrin inkişafında qarşılıqlı səfərlərin, o cümlədən ali və yüksək səviyyəli səfərlərin müstəsna rolu diqqətə çatdırılıb.

Görüşdə ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində çox səmərəli şəkildə əməkdaşlıq etdiyi bildirilib, BMT və Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlıq və qarşılıqlı dəstəkdən məmnunluq ifadə edilib. Qoşulmama Hərəkatında ölkəmizin sədrliyi dövründə Azərbaycan hökuməti tərəfindən irəli sürülən bütün təşəbbüslərin Venesuela tərəfindən dəstəkləndiyi vurğulanıb.



Görüşdə Venesuela Milli Assambleyasının sədri Xorxe Rodrigez Qomezin salamlarını Milli Məclisin sədrinə çatdıran qonaq, ölkəsinin Azərbaycanla münasibətlərə önəm verdiyini qeyd edib.

Söhbət zamanı ölkələrimiz arasında əlaqələrin genişləndirməsində ölkələrin ali qanunvericilik orqanlarının müsbət rolu qeyd edilərək, parlamentlər arasında əməkdaşlıq məsələləri nəzərdən keçirilib. Bu çərçivədə hər iki ölkənin parlamentində fəaliyyət göstərən dostluq qrupları arasında münasibətlərin, qarşılıqlı səfərlərin və beynəlxalq parlament təşkilatlarında əməkdaşlığın əhəmiyyəti vurğulanıb.

Spiker Sahibə Qafarova Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin institusional inkişafı, təşkilatın məqsədlərinin həyata keçirilməsi istiqamətində görülən işlər barədə məlumat verib. Venesuela Milli Assambleyası sədrinin müavini Parlament Şəbəkəsinin fəaliyyətini yüksək qiymətləndirib, ölkəsinin Şəbəkənin işində fəal iştirak etdiyini söyləyib.

Görüşdə qlobal iqlim dəyişiklikləri və onun yaratdığı problemlərin inkişaf etməkdə olan ölkələrə böyük təsirləri barədə də fikirlər səsləndirilib. Qonaq Azərbaycanın COP29 kimi böyük beynəlxalq tədbirə uğurlu evsahibliyi ilə bağlı təbriklərini çatdırıb.

Söhbət zamanı Milli Məclisin sədri, həmçinin Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsindən və suverenliyini bərpa etməsindən sonra regionda mövcud olan vəziyyət barədə də məlumat verib. O, Ermənistanın işğalı nəticəsində 1 milyona yaxın azərbaycanlının uzun illər ərzində qaçqın və məcburi köçkün həyatı yaşadığını, bu gün keçmiş məcburi köçkünlərin öz evlərinə qayıtdıqlarını bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.



## "I Qarabağ müharibəsində Monte Melkonyana tabe idim" - David İşxanyan

***Aprelin 3-də Bakı Hərbi Məhkəməsində davam etdirilən məhkəmə prosesində təqsirləndirilən şəxs David İşxanyan dövlət ittihamçılarının suallarını cavablandırarkən bildirib ki, Birinci Qarabağ müharibəsində tabor komandiri olarkən Monte Melkonyana tabe olub.***

"Unikal" xəbər verir ki, o, müharibə zamanı Ağdərədə, Xocavənddə, Kəlbəcərdə, Ağdamda Azərbaycan hərbçilərinə qarşı döyüşdüyünü etiraf edib.

"Xocavənddə 8 tabor var idi, mən də onlardan birinin komandiri idim. Səkkiz tabor rayonun "müdafiə xətti"nə tabe idi, onun rəhbəri Monte Melkonyan, "ordu"nun komandiri isə Samvel Babayan idi", - deyə o bildirib.

Qeyd edək ki, Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşlarının məhkəməsi davam etdirilir.

# Məzunları ən çox imtina alan Ukrayna və Rusiya universitetlərinin adları açıqlandı

***30 yanvar 2025-ci il tarixində DİM tərəfindən elektron qaydada keçirilmiş müəllimlik, mühəndislik və hüquq ixtisasları (68 ixtisas) üzrə ərizəçinin Elm və Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (TKTA) sifarişi ilə Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən təşkil edilən imtahanda iştirak etmək üçün 268 nəfər namizəd qeydiyyatdan keçib, onlardan 241 nəfəri imtahanda iştirak edib.***

Bu barədə TKTA-dan məlumat verilib. Sözügedən imtahanda ixtisaslar üzrə müraciət sayına uyğun olaraq ən çox imtina almış "hüquqşünaslıq" ixtisasının ölkələr üzrə təhlili aparılıb.

Peşə tanınması imtahanında "hüquqşünaslıq" ixtisası üzrə 113 nəfər iştirak edib, onlardan yalnız 15 nəfəri uğurlu nəticə əldə edib.

Məlum olub ki, uğursuz nəticə əldə etmiş kvalifikasiya sahibləri əsasən 2 ölkənin ali təhsil müəssisələrinin payına düşür. Belə ki, "hüquqşünaslıq" ixtisası üzrə Ukrayna ali təhsil müəssisələrindən əldə edilmiş kvalifikasiyalar üzrə peşə tanınması üçün müraciət etmiş namizədlərin 94% (64 nəfərdən 4 nəfər uğurlu nəticə əldə edib), Rusiya Federasiyasının ali təhsil müəssisələrindən əldə edilmiş kvalifikasiyalar üzrə peşə tanınması üçün müraciət etmiş namizədlərin 84% (38 nəfərdən 6 nəfər uğurlu nəticə əldə edib) müvafiq imtahanda uğursuz olub.



Ukrayna üzrə ən çox imtina Xarkov Milli Daxili İşlər Universiteti, Y. Mudrıy adına Milli Hüquq Universiteti, T. Şevçenko adına Kiyev Milli Universiteti, Rusiya Federasiyası üzrə ən çox imtinanı Dağıstan Dövlət Universiteti, Moskva Müasir Akademik Təhsil İnstitutu və Saratov Dövlət Hüquq Akademiyası məzunlarına aid olub.

Məlumat üçün bildiririk ki, TKTA-nın sifarişi əsasında 2024-cü ilin oktyabr ayında keçirilmiş imtahanda "hüquqşünaslıq" ixtisası üzrə Rusiya Federasiyasının ali təhsil müəssisələrindən əldə edilmiş kvalifikasiyalar üzrə peşə tanınması üçün müraciət etmiş namizədlərin uğursuzluq göstəricisi 70%, Ukrayna ali təhsil müəssisələrindən "hüquqşünaslıq" ixtisası üzrə məzun olan namizədlərin isə peşə imtahanı üzrə uğursuzluq göstəricisi isə 63% təşkil edib.

Bu təhlili əsas götürərək, vətəndaşlara sözügedən ölkələrin ali təhsil müəssisələrinə "hüquqşünaslıq" ixtisası üzrə müraciət edərkən yuxarıda qeyd olunan məqamları nəzərə almaları tövsiyə olunur.

Qeyd edək ki, "Xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması Qaydaları"nın 6.2-ci bəndinə əsasən müəllimlik, mühəndislik və hüquq ixtisasları (68 ixtisas) üzrə ərizəçinin Elm və Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (TKTA) sifarişi ilə Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən təşkil edilən imtahanda müvəffəqiyyət qazanması (keçid balını toplaması) tələb olunur. İmtahanın məzmunu, vaxtı, imtahan nəticələrinin qiymətləndirilməsi qaydası TKTA ilə razılaşdırılmaqla DİM tərəfindən müəyyənləşdirilir.

19 ixtisas üzrə müvəffəqiyyət göstəricisi 50% (120 nəfər) təşkil etmişdir. İxtisaslar üzrə iştirak etmiş və keçid balını toplamış namizədlərlə bağlı statistik məlumatlar təqdim edilir.

# Ağdam şəhərinə ilk köçün vaxtı açıqlandı

***"İşğaldan azad olunmuş Ağdam şəhərinə bu ilin oktyabr-noyabr aylarında ilk köçün həyata keçirilməsi planlaşdırılır".***



"Unikal" xəbər verir ki, bunu Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov AzTV-yə müsahibəsində deyib.

O bildirib ki, yaxın vaxtlarda rayonun Xıdırlı və Kəngərli kəndlərinə də ilk köç olacaq: "Xıdırlıda 719, Kəngərlidə isə 292 fərdi yaşayış evi tikilib. Bundan başqa, bütün qeyri-yaşayış obyektlərinin də tikintisi başa çatıb. Tamamlanma işləri görülüb. Tezliklə o kəndlərin sakinlərini qəbul etməyə hazırıq. Ağdam şəhərində isə 5 məhəllənin inşası nəzərdə tutulub. Onlardan birinin tikintisinə başlanılıb. Şəhərə oktyabr-noyabr aylarında ilk köç planlaşdırılır.

Ağdam təxminən 2000 hektarlıq ərazini əhatə edən 100 min əhalini məşkunlaşdıracaq ölkənin 4-cü ən böyük şəhəri olacaq. 2026-cı ilə qədər Ağdama 20-25 min civarında əhalinin köçürülməsi nəzərdə tutulub. Şəhərin 500 hektarlıq ərazisində müxtəlif infrastruktur obyektləri, muğam mərkəzi inşa olunacaq. İmarət Kompleksi hazırdır, Cümə məscidi restavrasiya olunub. İşğal və Zəfər muzeyləri inşa ediləcək. 2026-cı ilin sonuna qədər yaşayış üçün zəruri olan bütün məsələlərin tamamlanması nəzərdə tutulub".



# Azərbaycanla Monteneqro arasında siyasi məsləhətləşmələr aparıldı

***3 aprel 2025-ci il tarixində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Monteneqro Xarici İşlər Nazirliyinin dövlət katibi Perişa Kastratoviç ilə görüşüb.***

XİN-dən "Unikal"a verilən məlumata görə, görüş zamanı Azərbaycan-Monteneqro əməkdaşlığının hazırkı durumu və perspektivləri, ikitərəfli və çoxtərəfli səviyyələrdə münasibətlərin inkişaf etdirilməsi imkanları, habelə regional və beynəlxalq vəziyyət müzakirə olunub.

İki ölkə arasında əməkdaşlığın inkişafı və bu istiqamətdə mövcud potensialdan istifadə imkanlarının müzakirəsi baxımından qarşılıqlı səfər və təmasların, o cümlədən siyasi məsləhətləşmələr mexanizmindən istifadənin vacibliyi, parlamentlərarası əlaqələr qeyd olunub.

Azərbaycan-Monteneqro arasında xüsusilə iqtisadiyyat, ticarət, enerji təhlükəsizliyi, turizm və humanitar istiqamətlər üzrə əməkdaşlığın daha da inkişafı üçün münbit şəraitin olduğu diqqətə çatdırılıb. Bu xüsusda, yaşıl enerji üzrə tərəfdaşlığın genişləndirilməsinin əhəmiyyətinə toxunulub.

Nazir Ceyhun Bayramov, həmçinin qarşı tərəfi postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, demək olar ki, gündəlik əsasda vətəndaşlarımızın həyat və sağlamlıqlarına hədə törədən mina təhdidi ilə mübarizə səyləri barədə məlumatlandırıb.

Müqabil tərəf, eyni zamanda Azərbaycan-Ermənistan normallaşma və sülh prosesinin hazırkı vəziyyəti barədə məlumatlandırılıb. Ölkəmizin təşəbbüsü ilə başlayan ikitərəfli danışıqlar nəticəsində sülh müqaviləsinin mətninin razılaşdırıldığı, lakin müqavilənin imzalanması üçün əsas əngəllərin, xüsusilə də Ermənistan konstitusiyasında ölkəmizin ərazi bütövlüyünə qarşı iddiaların qalmaqda olduğu vurğulanıb.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Eyni gündə, Azərbaycan Respublikası və Monteneqro Xarici İşlər Nazirlikləri arasında siyasi məsləhətləşmələr aparılıb. Siyasi məsləhətləşmələrə Azərbaycan tərəfindən nazir müavini Elnur Məmmədov, Monteneqro tərəfindən isə dövlət katibi Perişa Kastratoviç rəhbərlik edib.

# "Son hadisələr Ermənistanın reallıqda sülh niyyətində olmadığını göstərir"

## Azər Badamov: "Azərbaycanla Ermənistan arasında sülh danışıqları üzrə razılıq əldə olunduğu bir dövrdə Ermənistan şərti sərhəddə atəşkəsi pozmaqla təxribat törədir"

***Azərbaycan-Almaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü, deputat Azər Badamov "Unikal"a müsahibə verib. O, Almaniya Prezidentinin Azərbaycana səfərindən, bu səfərin iki ölkə arasında iqtisadi əlaqələrə necə təsir edəcəyindən, Azərbaycan-Ermənistan sülh prosesi ilə bağlı hansı addımların atılacağından və Ermənistan silahlı qüvvələrinin son günlər təxribat törətməsinin məqsədlərindən danışıb.***

***-Azər müəllim, Almaniya Prezidentinin ölkəmizə səfərini necə qiymətləndirirsiz və bu səfər gələcək münasibətlərə nə kimi töhfə verəcək?***

-Azərbaycanla Almaniya arasında münasibətlər özünün inkişaf dövrünü yaşayır. Ölkələrimiz arasında davamlı siyasi dialoq mövcuddur, iqtisadi və humanitar sahələrdə geniş əməkdaşlıq həyata keçirilir. Prezident Frank Valter-Ştaynmayerin ölkəmizə səfəri və dövlət başçıları arasında aparılan müzakirələr ölkələrimiz arasında əməkdaşlığın dərinləşməsinə yeni bir impuls verəcək. Düzdür, Valter-Ştaynmayerin prezident qismində ölkəmizə rəsmi səfəri birinci dəfədir. Amma XİN rəhbəri kimi dəfələrlə ölkəmizə gəlib, ölkələrimiz arasında əməkdaşlığın inkişaf etdirilməsi, keçmiş Qarabağ münaqişəsinin dinc yolla həll olunması istiqamətində fikir mübadilələri aparılıb. Təəssüf ki, 30 ildən çox çəkən Azərbaycan Ermənistan münaqişəsinin ədalətli şəkildə həll olunması istiqamətində beynəlxalq ictimaiyyətin heç bir töhfəsi olmayıb. Amma Azərbaycan öz gücü ilə bu münaqişəni beynəlxalq hüquq normaları çərçivəsində həll etmiş və bu gün ölkələrimiz arasında sülh müqaviləsinin imzalanması ilə bağlı mövqelərimiz heç olmadığı qədər yaxınlaşıb. Dövlət başçımız Almaniya Prezidenti ilə ikitərəfli və nümayəndə heyətlərinin geniş tərkibdə iştirakı ilə keçirdiyi görüşlərdə mövqeyimizi və baş verən prosesləri qarşı tərəfin diqqətinə bir daha çatdırıb. Həm də dövlət başçımız ölkəmizdə keçirilən qlobal əhəmiyyətli COP 29 tədbirində iştirak etməyən yeganə ölkənin Ermənistan olduğunu və iştirak etməməsinin səbəbini başa düşülən olmadığını bir daha almaniyalı həmkarının diqqətinə çatdırıb. Eyni zamanda qeyd edim ki, Azərbaycan və Almaniya hökumətləri və parlamentlərarası münasibətlər yüksək səviyyədə inkişaf edir. Dövlət başçılarının, digər rəsmilərin qarşılıqlı səfərləri ölkələrimizi bir-birinə daha da yaxınlaşdırır, qarşılıqlı əməkdaşlıq əsasında münasibətlərin möhkəmlənməsinə töhfə verir.

***-Bu səfər zamanı iqtisadi əməkdaşlıq perspektivləri də müzakirə edilib. Azərbaycan və Almaniya arasında iqtisadi sahədə hansı yeniliklərin şahidi ola bilərik?***

-Ölkələrimiz arasında iqtisadi əlaqələr yüksələn xətlə inkişaf edir və əməkdaşlığın inkişaf etdirilməsinin hüquqi bazasını yaradan 77 sənəd imzalanıb. Bu ilin 2 ayı ərzində keçən ilin müvafiq dövrünə nisbətən ticarət dövriyyəsində 3 dəfədən çox artımın olması xüsusilə vurğulanmalıdı. Almaniya ilə Azərbaycan arasında ticarət dövriyyəsinin artmasının əsasında xam neftimizin alışının artırılması dayanır. Həm də Almaniya şirkəti ilə əmkdaşlıq edərək qazımızın Avropa bazarına istehlakını həyata keçiririk. Dövlət başçıları ticari-iqtisadi əməkdaşlığın şaxələndirilməsi ilə bağlı fikir mübadiləsi aparıb. Belə ki, Azərbaycanın yaşıl gündəliyi çox zəngindir və 2030-cu ilə qədər 6 giqovat gücündə bərpa olunan enerji gücümüz formalaşacaqdır. Təbii ki, bərpaolunan enerjimizin Avropaya ixrac edilməsində Almaniya ilə əməkdaşlığımızın dərinləşdirilməsi müsbət nəticələr verəcək. Humanitar sahədə də əməkdaşlığımız inkişaf edir və bu, xalqlarımızın daha da yaxınlaşmasına töhfə verəcəkdir.

***-Prezidentlərin mətbuata bəyanatlarla çıxışı zamanı Azərbaycan-Ermənistan sülh prosesi ilə bağlı fikirlər səsləndirildi. Almaniya lideri də sülh prosesinin çox böyük əhəmiyyəti olduğunu qeyd etdi. Almaniya sülh prosesinə hansı dəstəyi verə bilər?***



-Prezident İlham Əliyevin Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayerlə birgə keçirdiyi mətbuat konfransında Azərbaycanla-Ermənistan arasında sülh müqaviləsinin imzalanması ətrafında fikirlər ifadə olunub. Cənab Prezidentin qeyd etdiyi kimi, Ermənistan özünü "sülh göyərçini" kimi təqdim edir. Azərbaycanın təklif etdiyi şərtləri qəbul etdiyini bildirir, amma reallıqda bu şərtlərin həyata keçirilməsi üçün addım atmır. Belə ki, Azərbaycan müharibənin bitdiyi ilk gündən Ermənistana sülh əlini uzadıb. Beş baza prinsipi əsasında sülh təklifləri hazırlayaraq göndərib. Ermənistan bu təklifləri qəbul etdiyini bildirsə də, iki təklifin icra edilməsi ilə bağlı heç bir iş görməyib. Bunlardan biri ATƏT-in Minsk qrupunun ləğv edilməsi ilə bağlı müraciətin ünvanlanmasıdır. ATƏT-in Minsk qrupunun fəaliyyət göstərdiyi 27 ildən artıq bir dövrdə münaqişənin həll edməsi ilə bağlı hər hansı addım olmadı. Azərbaycan öz gücü ilə bu münaqişənin həll edilməsinə məcbur oldu və bu gün Azərbaycan ərazilərinin suverenliyi tam şəkildə bərpa olunub. Ermənistanın baş naziri Nikol Paşinyan Qarabağ Ermənistandır deyirdisə, bu gün Qarabağ Azərbaycandır deyir. Burada Minsk qrupunun görəcəyi hər hansı iş yoxdur. ATƏT-in Minsk qrupu de-fakto fəaliyyətsizdir, de-yure ləğv olunması üçün Ermənistanın müraciət etməsi vacib məsələdir. Təəssüf ki, Ermənistanda bu istiqamətdə bir hərəkətlik yoxdur. Digər məsələ isə Ermənistan konstitusiyasında edilməli olan dəyişikliklə bağlıdır. Onların konstitusiyasında Azərbaycana qarşı ərazi iddiaları var. Bu qaldıqca, iki ölkə arasında sülh müqaviləsi bağlana bilməz. Sülh müqaviləsi gələcəkdə yenidən müharibə üçün risk ehtimalı yaratmalı deyil. Bu baxımdan Ermənistanın konstitusiyasında müvafiq dəyişikliyin edilməsi vacibdir. İki bəndin icra edilməsi ilə sülh müqaviləsi imzalana bilər. Almaniya Prezidenti də Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasını vacib hesab edir və bu məsələni dəstəklədiyini bildirib. Frank-Valter Ştaynmayer qeyd edib ki, Qarabağ Azərbaycanın tərkib hissəsidir.

***-Sülh danışıqlarının aparıldığı bir vaxtda Ermənistan silahlı qüvvələrinin mövqelərimizi atəşə tutmasının şahidi oluruq. Bu cür təxribatların məqsədi nədir?***

-Azərbaycanla Ermənistan arasında sülh danışıqları üzrə razılıq əldə olunduğu bir dövrdə Ermənistan şərti sərhəddə atəşkəsi pozmaqla təxribat törədir. Bu, Ermənistanın reallıqda sülh niyyətində olmadığını göstərir. Ermənistan həm silahlanır, həm də şərti sərhəddə atəşkəsi pozur. Həmçinin, sülhə bağlı təklifləri qəbul etdiyini bildirir. Bunlar bir-birinə zidd məsələlərdir. Ermənistanın hərəkətləri onların sülhə hazır olmadığını və müharibəyə hazırlaşdığını göstərir. Onlar anlamalıdırlar ki, Azərbaycanla heç vaxt yenidən müharibə edə bilməzlər. Azərbaycan Ordusu hər gün daha da güclənir. Ermənistan müxtəlif ölkələrdən yeni silahlar alır, təlimlər keçir. Bunlara baxmayaraq, Azərbaycan Ordusu döyüş qabiliyyətini yüksək səviyyədə saxlayır və günü-gündən artırır. Əgər Ermənistan tərəfindən davamlı təxribat hərəkətləri müşahidə olunarsa, ölkəmizin suverenliyi üçün təhlükə yaradarsa, cavabımız ciddi və qəti olacaq. Bu, Ermənistan üçün ağır faciə ilə nəticələnə bilər. Yaxşısı odur ki, Ermənistan sülh müqaviləsi ilə bağlı bildirdiyimiz təklifləri reallıqda həyata keçirsin, təxribatlardan əl çəksin, silahlanmaya üstünlük verməsin və regionda sabitliyin yaranması istiqamətində addımlar atsın.

***Anar Kəlbiyev***

12_27 IYUl-QARA.qxd 4/3/2025 10:14 PM Page 8



# Abel Məhərrəmovun dəbdəbəli villası üçün şok qərar

## Ali Məhkəmə sabiq rektor-deputatın adı hallanan torpaq qalmaqalı ilə bağlı məhkəmə hökmünü apellyasiya instansiyasına qaytardı - Bundan sonra nə olacaq?

***Bakı Dövlət Universitetinin (BDU) keçmiş rektoru, Milli Məclisin üçüncü və dördüncü çağırış deputatı olmuş Abel Məhərrəmovla Qarabağ qazisi, ehtiyatda olan polkovnik-leytenant Nazim Əmirov arasında torpaq qalmaqalı davam edir.***

Məsələ burasındadır ki, Ali Məhkəmə işi yenidən apellyasiya instansiyasına qaytardıqdan sonra Sumqayıt Apellyasiya Məhkəməsində artıq baxış iclası da keçirilib. İclasda tərəflərin sənədləri araşdırılıb və bundan sonra proses qeyri-müəyyən vaxta təxirə salınıb.

Abel Məhərrəmovu məhkəməyə verən Nazim Əmirov xəbəri "Qaynarinfo"ya təsdiqləyib. O, bildirib ki, apellyasiya instansiyasının bu dəfə ədalətli qərar qəbul edəcəyinə inanır.



Nazim Əmirov Abel Məhərrəmovu Altıağac qəsəbəsində ona məxsus torpaq sahəsini zəbt edərək, xanımı Rəhimə Mahmudovanın adına rəsmiləşdirməkdə ittiham edir. Polkovnik-leytenant iddia edir ki, keçmiş rektor ona məxsus torpaq sahəsində özünə dəbdəbəli villa tikib.

Nazim Əmirov bundan xəbər tutduqda məhkəməyə üz tutub. Xızı Rayon Məhkəməsi polkovnik-leytenantın iddiasını təmin etməyib. O, apellyasiya şikayəti verib. Şikayətə Sumqayıt Apellyasiya Məhkəməsində baxılıb və təmin edilməyib. Bundan sonra o, Ali Məhkəməyə kassasiya şikayəti verib. Ali Məhkəmə işə yenidən apellyasiya instansiyasında baxılması barədə qərar qəbul edib.

Yuxarıda da vurğuladığımız kimi, keçmiş rektor sabiq polkovnikə məxsus torpaq sahəsində özünə dəbdəbəli villa ucaldıb. İndi apellyasiya instansiyasında bu dəfə şikayətçi tərəf qalib gələcəyi təqdirdə dəyərinin bir neçə milyon manat olduğu iddia edilən həmin villanın aqibətinin necə olacağı da maraq doğurur.

Onu da deyək ki, sözügedən villa Abel Məhərrəmova məxsus çoxsaylı imarətlərdən yalnız biridir. Yerli mediada vaxtilə yazılanlardan belə aydın olur ki, onun Binəqədidə, "Varovski" deyilən ərazidə (Rəsulzadə qəsəbəsi) iki, Quba rayonunda bir, Nabranda bir, Mərdəkan qəsəbəsində bir , Milli Elmlər Akademiyası yaxınlığında yerləşən və "milyonerlər məhəlləsi" kimi bilinən ərazidə bir villası var.

Əlavə edək ki, Abel Məhərrəmov bundan əvvəl başqa bir mülkü ilə bağlı qalmaqal yaşamışdı. Belə ki, vətəndaş İsmixan Mirzəyev iddia etmişdi ki, Bakıda 4 mərtəbəli villanın pilləkənin, mansardın, qapıların, şəbəkənin (reşyotkanın), "besedka"nın, barın hazırlanması və quraşdırılmasına görə sabiq rektor-deputat 90 300 manat borclu qalıb. Bundan başqa, Məhərrəmova məxsus "Mona Liza" şadlıq sarayında görülən təmir işlərinə görə 55 min manat borc yaranıb. Abel Məhərrəmovun Mərdəkan qəsəbəsindəki bağ evində və Şərifzadə küçəsindəki "Qlobus" bağçasında görülən işlərə görə 65 min borcu qalıb. Xaçmazın Nabran qəsəbəsindəki "El Faro" ailəvi istirahət və əyləncə mərkəzində görülən 186 000 manatlıq işin pulunu ödəməyib.

Yekunda Abel Məhərrəmovun ustalara 800 min manatdan artıq borcu olduğu iddia edilmişdi.

Məhkəmə bu qalmaqalda Abel müəllimi haqsız saymışdı. Belə ki, ona qarşı iddianı təmin etmiş və keçmiş rektor-deputatın 800 min manatı ödəməli olduğu barədə qərar çıxarmışdı.

İndi isə Ali Məhkəmənin Xızıdakı torpaq qalmaqalı ilə bağlı işi apellyasiya instansiyasına qaytarmasının ardınca Sumqayıt Apellyasiya Məhkəməsində prosesin başlaması onun ikinci dəfə şok yaşaması, təkcə həmin torpağı deyil, orada inşa etdirdiyi dəbdəbəli villanı da itirməsi ilə nəticələnə bilər. Əldə etdiyimiz məlumata görə, şikayətçi tərəfin məhkəməyə müraciətində həmin villa qanunsuz tikili kimi qələmə verilir və onun sökülməsi istənilir.

Xartırladaq ki, 2005-2015-ci illərdə iki çağırış Milli Məclisin üzvü olmuş Məhərrəmov Bakı Dövlət Universitetinə isə 1999-2018-ci illərdə rəhbərlik edib. Onun rektor vəzifəsindən azad olunması barədə qərarın verilməsindən təxminən iki həftə öncə geniş tərkibli Azərbaycan nümayəndə heyətinin xüsusi reyslə İspaniyanın paytaxtı Madrid şəhərinə səfəri zamanı baş verən biabırçılıqla izah olunurdu. "Airbus-319A təyyarəsi ilə uçmağa hazırlaşan nümayəndə heyəti öz yerini tutduqdan sonra təyyarə 2 saata qədər havaya qalxa bilməyib. Buna səbəb isə sərnişinlərdən birinin - nümayəndə heyətinin tərkibində yer alan BDU-nun rektoru, akademik Abel Məhərrəmovun 2 tonluq baqajı olub. Səfər iştirakçıları noyabrın 10-da Madriddən qayıdanda da eyni hadisə ilə üzləşməyə məcbur olublar. Yalnız A.Məhərrəmova və onun ölkəmizin İspaniya Krallığındakı səfir işləyən oğluna məxsus 2 tona qədər yük boşaldıldıqdan sonra təyyarənin uçuşuna icazə verilib" - deyə həmin vaxt bildirilmişdi.

"Sən demə, Şərab dolu çəlləklər kontrabanda yolu ilə Azərbaycandan İspaniyaya aparılır və orada şüşələrə doldurularaq qeyri-qanuni şəkildə geri qaytarılır. Sonra isə ispan şərabı adı ilə A.Məhərrəmova məxsus şadlıq evlərində, restoranlarda və digər ticarət nöqtələrində satılır" - KİV daha sonra əlavə etmişdi.

Bütün bunların ortaya çıxması isə A.Məhərrəmovun karyerasının sonu oldu. Ardınca isə onun inanılmaz sərvətinə, BDU-da külli miqdarda borc yaratmasına dair faktlar da ictimailəşdi.

*Sənan Mirzə*

# Azər Qasımlının həbs müddəti uzadıldı

***Siyasi Menecment İnstitutunun direktoru, politoloq Azər Qasımlının barəsində seçilmiş həbs qətimkan tədbirinin uzadılması ilə bağlı istintaq orqanının təqdimatına baxılıb.***



"Unikal" APA-ya istinadən xəbər verir ki, bu gün Yasamal rayon Məhkəməsində hakim Orxan Məmmədlinin sədrliyi ilə keçirilən prosesdə istintaq orqanının təqdimatı təmin edilib.

Məhkəmə Azər Qasımlının həbs qətimkan tədbirinin 2 ay müddətinə uzadılması barədə qərar verib.

Qeyd edək ki, Siyasi Menecment İnstitutunun direktoru, politoloq Azər Qasımlı barəsində olan müraciətlə əlaqədar 8 dekabr 2024-cü ildə polis tərəfindən saxlanılıb.

O, Cinayət Məcəlləsinin 182.2.3 (Hədə-qorxu ilə tələb etmə, zor tətbiq etmə ilə törədildikdə) maddəsi üzrə təqsirli bilinir.

# Məktəblərdə dərslər mayda bitəcək? - RƏSMİ



***"Məktəblərdə tədris ili iyunun 14-də başa çatacaq".***

"Unikal" xəbər verir ki, bu sözləri Axar.az-a açıqlamasında Elm və Təhsil Nazirliyinin mətbuat xidmətindən məktəblərdə tədrisin mayda yekunlaşacağı ilə bağlı iddialara cavabda bildirilib.

Qeyd edilib ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 24 fevral tarixli 66 nömrəli Qərarı ilə "Ümumi təhsil müəssisələrində tədris ilinin müddəti" təsdiq edilib:

"Həmin sənədin 2.3-cü bəndinə əsasən, ümumi təhsilin ibtidai, ümumi orta və tam orta təhsil səviyyə ləri üzrə dərs məşğələləri hər il sentyabrın 15-də başlayır və növbəti il iyunun 14-də başa çatır. Bu baxımdan, cari tədris ilinin sözügedən sənəddə qeyd olunandan fərqli tarixdə bitməsi məsələsi müzakirə mövzusu deyil".

Qeyd edək ki, sosial şəbəkələrdə ilin isti keçməsi səbəbindən orta məktəblərdə tədrisin 31 mayda başa çatacağı iddiası yayılmışdı.

# İyunda ardıcıl 4 gün iş olmayacaq

***İyun ayında qeyri-iş günlərinin sayı məlum olub.***




"Unikal" xəbər verir ki, iş vaxtı norması və istehsalat təqviminə əsasən, iyunun 6 və 7-si Qurban bayramı, 15-i Milli Qurtuluş Günü, 26-sı isə Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günüdür.

İyunun 7-si şənbə gününə təsadüf etdiyi üçün Əmək Məcəlləsi və Nazirlər Kabinetinin qərarlarına əsasən, beşgünlük iş həftəsində 9 iyunda da iş olmayacaq. Beləliklə, Qurban bayramı ilə əlaqədar 4 gün ardıcıl - 6, 7, 8, 9 iyun tarixləri istirahət günləridir.

Həmçinin iyunun 15-i bazar gününə təsadüf etdiyindən 16 iyun da qeyri-iş günü olacaq.

Beləliklə, şənbə və bazar günləri də daxil olmaqla, iyunda qeyri-iş günlərinin sayı 13 gün təşkil edəcək.

12_27 IYUI-QARA.qxd 4/3/2025 10:14 PM Page 9



# David İşxanyan Sarkisyanın roluna dair açıqlama verdi



***Bakı Hərbi Məhkəməsində aprelin 3-də davam etdirilən məhkəmə prosesində təqsirləndirilən şəxs David İşxanyan dövlət ittihamçılarının suallarını cavablandırarkən qondarma rejimin "ordu"sunun idarə olunmasının "özünümüdafiə komitəsi" tərəfindən həyata keçirildiyini bildirib.***

"Unikal" xəbər verir ki, o qeyd edib: "Rəhbərlər Serj Sarkisyan və Samvel Babayan idi. Amma idarəetmə mexanizmi ilə bağlı bir şey deyə bilmərəm".

Qeyd edək ki, Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan vətəndaşlarının məhkəməsi davam etdirilir.

# BTQ Fransa hökuməti ilə Kanaki arasında vasitəçilik təşəbbüsünü irəli sürüb

***Bakı Təşəbbüs Qrupu (BTQ) yarandığı gündən hər zaman dialoqu və sülh yolu ilə problemlərin həllini rəhbər tutur.***

Bu barədə BTQ-nin icraçı direktoru Abbas Abbasovun Fransanın dənizaşırı ərazilər naziri Manuel Valsa məktubunda deyilir.

A.Abbasov M.Valsın Kanakiyə səfərinin bölgədə vəziyyətin yerində öyrənilməsi və kanak xalqının tələblərini dinləmək baxımından təqdirəlayiq olduğunu qeyd edib:

"Heç bir proses sonsuz ola bilməz və siz də yəqin ki, qəbul edərsiz ki, danışıqlar nəticə yönümlü olmalıdır. Bu kontekstdə 1946-cı ildən açıq qalan və xüsusilə 1988-ci ildə imzalanmış Matinyon sazişindən bəri Fransa hökumətinin öz öhdəliklərini yerinə yetirməkdən yayınması kanak xalqı kimi dekolonizasiya üzrə beynəlxalq QHT olan Bakı Təşəbbüs Qrupunu da ciddi narahat edir".

A.Abbasov BTQ-nin danışıqlara yeni nəfəs və töhfə vermək üçün Fransa hökuməti ilə Kanaki arasında danışıqlarda tərəfsiz vasitəçilik təşəbbüsünü irəli sürdüyünü bildirib.

"Kanak xalqının mütləq əksəriyyətinin təşkilatımıza olan etimadını, eləcə də dekolonizasiya sahəsində beynəlxalq təcrübəmizi nəzərə alaraq, təklifimizə müsbət reaksiya verəcəyinizə ümid edirik. Öz fəaliyyətini beynəlxalq hüququn norma və prinsipləri üzərində quran təşkilatımızın danışıqlarda balanslı və ədalətli bir yanaşma təqdim edərək, tərəflər arasında qarşılıqlı anlaşma və əməkdaşlığın inkişafını dəstəkləyəcəyinə əmin ola bilərsiz".

# "Bakı Metropoliteni"nə 225 min dollar ayrıldı

***Asiya İnkişaf Bankı (ADB) "Bakı Metropoliteni"nin genişləndirilməsi layihəsi çərçivəsində texniki yardım üçün 225 min ABŞ dollarının ayrılmasını təsdiqləyib.***

"Unikal" ADB-yə istinadən xəbər verir ki, maliyyələşdirmə xüsusi texniki yardım fondundan həyata keçiriləcək.

Vəsaitlər "Bakı Metropoliteni" QSC-nin aşağıdakı istiqamətlərdə dəstəklənməsinə yönəldiləcək:

- mövcud və hazırlanan layihə sənədlərinin təhlili:
- nəqliyyat sektorunda idarəetmə səmərəliliyinin artırılması üçün institusional dəyişikliklərə dəstək;
- infrastruktur layihələrinin həyata keçirilməsində potensialın gücləndirilməsi,
- ekoloji tələblər, satınalmalar və layihə fəaliyyətinin digər aspektləri sahəsində ADB standartları ilə bağlı biliklərin ötürülməsi.

Bu dəstəyin Bakıda metropolitenin müasir, səmərəli və tələblərə uyğun inkişafına töhfə verəcəyi gözlənilir.

# Şərurlu İsfəndiyarın oğlu ilə bağlı yeni qalmaqal və çoban söhbəti...

## Məşhur tikinti maqnatı diqqəti gündəmə bomba kimi düşən iddialardan necə yayındırdı?

***Yola salmaq üzrə olduğumuz həftə mediada və sosial şəbəkələrdə Şərurlu İsfəndiyar kimi tanınan tikinti maqnatı, "Şərur MTK"nın sahibi İsfəndiyar Axundovun bir müsahibəsində səslləndirdiyi fikirlər səbəbindən müzakirə mövzusuna çevrilib. Onun "Hərfləri tanımıram, yazı yaza bilmirəm. Mən oturmuşam, çoban. Amma alimlər işləyir, pullar da gəlir" sözləri mübahisələrə səbəb olub.***

Halbuki həmin müsahibədən qısa müddət öncə Şahin Axundovun adı ətrafında yeni qalmaqala dair xəbər yayılmışdı. Belə ki, "musavat.com saytı" 20 il öncə böyük bir qalmaqalın mərkəzi fiquru olaraq gündəmə gəldiyini xatırladaraq yazıb: "O zaman Şahin Axundov Türkiyə səfirliyinin önündə Anar İsmayılovun avtomobilini güllələbarana tutmuşdu. Həmin vaxt ölkə başçısının məsələyə qarışması ilə Şahin Axundov həbs olundu, 5 il cəza çəkdikdən sonra azadlığa çıxdı. Lakin Şahin Axundovun cəzasını elə azadlıqda çəkdiyinə dair informasiyalar da var idi. Yəni kimlərsə "Şərurlu İsfəndiyar"ın xahişlərini yerə salmamışdı".

Saytın yazdığına görə, son məlumatda deyilir ki, baş verən qalmaqaldan sonra İsfəndiyar Axundov oğlu Şahin Axundovu Türkiyəyə göndərib, uzun illər orada yaşayıb. Sitat: "Lakin orada da tikinti maqnatının oğlu dinc dayanmayıb, adı ən müxtəlif qalmaqallara qarışıb. Bu yaxınlarda Bakıya gələn Şahin Axundovun psixoloji durumunda gərginlik yaranıb, onu xəstəxanalardan birinə yerləşdiriblər. Hazırda Şahin Axundovun ciddi nəzarət altında müalicə olunması xəbəri də var.

İsfəndiyar Axundovun oğlunu Türkiyəyə göndərməsi xəbəri Bakı Ağır Cinayətlər Məhkəməsində keçirilən məhkəmə proseslərindən birində də səsləndirilmişdi. 2021-ci ildə mühakimə olunan "Zaminbank"ın keçmiş sədri Nadir İsmayılov İsfəndiyar Axundovla bağlı ifadə verərkən bu haqda danışmışdı.

Nadir İsmayılov məhkəmədə İsfəndiyar Axundovu aldatması barədə ikincinin iddialarına münasibət bildirərkən bu mövzuya da toxunmuşdu: "Mən onu aldatmamışam. İsfəndiyar Axundov düzgün danışmır. Onlar birinci dəfə 5 milyon götürdülər. İkinci dəfə də qalan 5 milyona iki "Lamborghini", iki "Ferrari" aldılar. 300 min də qudası Məhərrəmə verdi. Birinci xanımından olan oğlu üçün Türkiyəyə pul göndərdi. Danışır, amma hamısını demir"".

Bu iddialarla bağlı İsfəndiyar Axundovla əlaqə saxladıqda isə o, "oğlum xaricdə deyil, xəstə də deyil, kim nə istəyir yazır" deməklə kifayətlənib.

Daha maraqlısı isə odur ki, yuxarıdakı xəbərin üstündən çox keçməmiş tikinti maqnatının mübahisələrə, müzakirələrə səbəb olan fikirlərlə zəngin müsahibəsi yayımlandı. Bəziləri bunu Şərurlu İsfəndiyarın diqqəti oğlu ilə bağlı son xəbərlərdən yayındırmaq cəhdi kimi qiymətləndirir və hesab edirlər ki, həmin cəhd uğurla nəticələnib. Yəni Şahin Axundovla bağlı iddiaları arxa plana keçirməyi bacarıb.

Onu da deyək ki, Şərurlu İsfəndiyarın adı övladları ilə bağlı dəfələrlə mətbuatın gündəminə gəlib. Tikinti maqnatının digər oğlu Allahverdi Axundov 650 min manata "Lamborghini" alması ilə gündəmə gəlmişdi. O zaman Şərurlu İsfəndiyar əvvəlcə xəbəri təkzib eləyib. Sitat: "Bu, yalandır, uydurmadır, mənim oğlumun elə maşını yoxdur" deyən tikinti maqnatı danılmaz faktla üzləşdi. Sən demə, Allahverdi Axundov artıq sosial şəbəkələrdə bahalı avtomobilinin fotosunu "My new car" (Mənim yeni avtomobilim) qeydi ilə paylaşıbmış.



İsfəndiyar Axundovun bu fakta reaksiyası isə belə olmuşdu: "Hə, nə olsun? Mənim vertolyotum da var. Bunun kimə nə aidiyyəti var? Həmin maşın oğlumundur. Mənim oğlum neyləyib? Şəhərdə vertolyot sürməyib kig Maşın sürüb də. Başqa nə iş görüb?"

Lakin Allahverdi Axundov təkcə 650 minlik "Lamborghini"yə sahib deyil. Onun sosial şəbəkələrdə paylaşdığı fotolardan görünür ki, kifayət qədər dəbdəbəli həyat yaşayır.

Bu arada tikinti maqnatının özünün də başı skandallardan açılmır. Belə ki, o, yola salmaq üzrə olduğumuz həftə xüsusi ittiham qaydasında məhkəməyə verilib. "Qafqazinfo"nun əldə etdiyi məlumata görə, məşhur tikinti maqnatından şikayət edən iş adamı "Proqress 2016" MTK-nın rəhbəri Emil Səməndərovdur.

E.Səməndərov bir müddət əvvəl həbs edilib. Amma hələ ki, barəsində yekun məhkəmə qərarı yoxdur.

Səməndərovun vəkili Asim Abbasovun sözlərinə görə, Şərurlu İsfəndiyar müsahibələrindən birində müvəkkilini dələduz kimi təqdim edib. Həmin cümlə konkret olaraq aşağıdakı kimi deyilib: "Mən sizə deyim ki, "Proqress" MTK-nın rəhbəri Emil insanları, nə qədər adamları aldadıb, hazırda cəzasını çəkir".

Vəkil hesab edir ki, İ.Axundov bu hərəkəti ilə barəsində qanunu qüvvəyə minmiş hökm olmayan şəxsin şərəf və ləyaqətini alçaltmış olub. Buna görə də İsfəndiyar Axundov barəsində Cinayət Məcəlləsinin 147.2-ci (böhtan) və 148-ci (təhqir) maddələri üzrə xüsusi ittiham qaydasında şikayət edilib. Xüsusi ittihamçı İ.Axundovun qeyd olunan maddələrin sanksiyası həddində azadlıqdan məhrum edilməsini istəyir.

Şikayəti Binəqədi Rayon Məhkəməsinin hakimi Vüsal Tağıyev araşdıracaq. İclas aprelin 8-də keçiriləcək.

Qeyd edək ki, təhqir və böhtan maddələrinin sanksiyasında 3 ilə kimi azadlıqdan məhrumetmə, şərti cəzalandırılma, cərimə və islah işləri cəzası nəzərdə tutulur.

***Toğrul Əliyev***

12_27 IYUI-QARA.qxd 4/3/2025 10:14 PM Page 10



# Yüzlərlə ailə Vüqar Qurbanova qarşı üsyanda

## TƏBİB rəhbərinin yeni kadrı ilk günlərdən narazılığa səbəb oldu

***Respublika Endikronoloji Mərkəz tərəfindən I tip şəkər xəstəsi olan uşaqlara verilən sensor əsaslı qlükoza monitorinq sistemi "Sibionics" cihazının verilməsi dayandırılıb. Belə ki, Novruz və Ramazan bayramı ilə bağlı 12 qeyri-iş gününün ardından Mərkəzə müraciət edən xəstələrin yaxınlarına hələ ki, həmin cihazın verilməyəcəyi deyilib. Bu isə I tip şəkər xəstəsi olan uşaqların valideynlərində narazılıq yaradıb.***

"Sibionics"in verilməsinin dayandırılması səbəbi açıqlanmayıb. Bunun müvəqqəti xarakter daşıdığı deyilir. Eyni zamanda Respublika Endikronoloji Mərkəzdəki yoxlamalarla və həmin yoxlamalar nəticəsində açılan cinayət işi ilə bağlı olduğu güman edilir.

Valideynlərin sözlərinə görə, sözügedən cihaz I tip şəkər xəstəliyindən əziyyət çəkən azyaşlıların və şagirdlərin sağlamlığı baxımından həyati əhəmiyyətlidir. Onlar qısa vaxtda "Sibionics" cihazlarının verilməsinin bərpa olunacağına ümid bəsləyirlər.

Xatırladaq ki, ötən ay Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Respublika Endokrinoloji Mərkəzdə yoxlamalara başladığı, müvafiq şikayət əsasında artıq Mərkəzin rəhbərliyi və bir neçə həkim endokrinoloq barəsində araşdırmalar aparıldığı bildirilib.

Qeyd olunub ki, yoxlamalara cəlb olunanlar arasında Mərkəzin direktoru Nərmin İsmayılova, inzibati işlər üzrə direktor müavini Vəfa Kərimova, baş həkim Ülviyyə Əhmədova və digər şəxslər var.

Nərmin İsmayılova yerli mediaya açıqlamasında əməliyyatın inzibati işlər üzrə direktor müavini vəzifəsində çalışmış Vəfa Kərimovadan edilən şikayət əsasında keçirildiyini, əməliyyat nəticəsində saxlanılan olmadığını, barəsində səslənən ittihamların yalan olduğunu açıqlamışdı. Bildirmişdi ki, əməliyyatdan sonra özü və baş həkim Ülviyyə Əhmədova işdən öz ərizələri ilə çıxıblar.

İlkin məlumatlara görə, istintaqa cəlb edilən rəhbər vəzifəli şəxslər Mərkəzdə ciddi qanun pozuntularına yol veriblər. Belə ki, xəstələrdən kütləvi şəkildə rüşvət tələb etmə, xəstə qəbulu prosesində nöqsanlar, qanunsuz reseptlərin yazılması, insulin və digər diabetik dərman preparatlarının pul müqabilində satılması kimi neqativ hallar müəyyən edilib.

Hətta Mərkəzin həkimləri sağlam şəxslərə ağır diabet diaqnozu qoyaraq onlara arayışları yüksək məbləğ müqabilində satıblar. Hazırda həbs edilənlər olmasa da, bir neçə həkimin ev dustaqlığına alınması haqda qərar verilib.

Toplanmış ilkin sübutlar əsasında Cinayət Məcəlləsinin 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 312-1.1-ci (vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmə (nüfuz alveri)) maddələri ilə cinayət işi başlanıb.

Yola salmaq üzrə olduğumuz həftə yayılan məlumata görə, Respublika Endokrinoloji Mərkəzin direktoru Nərmin İsmayılovanın vəzifəsindən azad edilməsi rəsmiləşib. Bununla bağlı TƏBİB-in İdarə Heyətinin sədri Vüqar Qurbanov əmr imzalayıb.



Vüqar Qurbanovun digər əmri ilə sözügedən vəzifəyə Kəmalə Ağayeva gətirilib.

"Unikal"ın əldə etdiyi məlumata görə, bu təyinatadək K.Ağayeva TƏBİB-in stasionar tibbi xidmətin təşkili şöbəsinin müdiri olub.

Onu da deyək ki, "Sibionics" cihazları diabet xəstələri üçün müasir texnologiyaya əsaslanan həllər təqdim edir. Bu cihazlar diabetin idarə olunmasını asanlaşdırmaq və xəstələrin gündəlik həyat keyfiyyətini yaxşılaşdırmaq məqsədi daşıyır.

"Sibionics" - davamlı qlükoza monitorinqi (CGM) sistemləri diabet xəstələrinə qan şəkər səviyyəsini mütəmadi izləməyə imkan verir. Bu sistemlər aşağıdakı üstünlükləri ilə seçilir:

Ağrısız və rahat istifadə - Cihaz dərialtı sensorlar vasitəsilə qan şəkərini davamlı olaraq ölçür, iynə ilə test etməyə ehtiyac qalmır.

Real vaxt rejimində məlumatlar - xəstələr və həkimlər istənilən vaxt smartfon və ya digər ağıllı cihazlar vasitəsilə qan şəkəri səviyyəsini izləyə bilirlər.

Həyəcan siqnalları və xəbərdarlıqlar - qlükoza səviyyəsi çox aşağı və ya yüksək olduqda, cihaz avtomatik siqnal verir.

Geniş analiz və hesabatlar - Xəstələr uzunmüddətli qlükoza göstəricilərini analiz edərək diabeti daha yaxşı şəkildə nəzarət altında saxlaya bilirlər.

Sözügedən cihazların hazırkı qiyməti təxminən 120 manat ətrafındadır və iki həftə boyunca aktivdir. Bir sözlə, hər hansı diabet xəstəsi ay ərzində həmin cihazdan istifadə üçün 250 manata yaxın vəsait xərcləməlidir. Nəzərə alaq ki, Azərbaycan reallığında həmin məbləğ vətəndaşların cibinə uyğun deyil. Elə ona görə də dövlət 18 yaşınadək olan I tip şəkər xəstələrinin bu cihazlarla təminatını öz üzərinə götürüb.

***Sənan Mirzə***




# Vaşinqtonun yeni tarifləri Azərbaycana necə təsir edəcək?

***"ABŞ Prezidenti Donald Tramp dünya ölkələrinə qarşılıqlı tariflərlə bağlı Fərman imzalayıb. Tariflərin tətbiq olunduğu ölkələr arasında Azərbaycan da var. Ölkəmiz üçün minimal 10 % həcmində gömrük rüsumu müəyyən edilib".***

"Unikal" xəbər verir ki, bunu deputat Vüqar Bayramov deyib. O bildirib ki, Azərbaycan ilə ABŞ arasında ticarət dövriyyəsinin son illər artmasına rəğmən ölkəmiz okeanın o biri tərəfindən daha çox mal idxal edir:

"Belə ki, 2024-cü ildə Azərbaycan ABŞ-dan 1 milyard 617 milyon dollarlıq mal idxal edib və həmin müddətdə Birləşmiş Ştatlara ixracatımız cəmi 135 milyon 30 min dollar olub. Bu o deməkdir ki, xarici ticarətdə Birləşmiş Ştatlar ilə 1 milyard 482 milyon dollarlıq mənfi saldoya malikik. Bütün bunlarla yanaşı ötən il əvvəlki illə müqayisədə ABŞ-dan idxalımız 1.8, Birləşmiş Ştatlara ixracatımız isə 8.4 dəfə artıb. Yəni, ixracatımızın az olmasına baxmayaraq, artım dinamikası çox yüksəkdir. Bu iş adamlarımız üçün ABŞ-ın yeni ixrac destinasiyasına çevrilməsi anlamına gəlir. Təbii ki, yeni tariflər daha çox qeyri neft-qaz ixrac məhsullarına təsir göstərir. 2024-cü ildə qeyri neft-qaz məhsulları üzrə ABŞ-a ixracatımız 134 milyon 663 min dollar olub. Azərbaycan mənşəli qeyri neft-qaz məhsulları üzrə isə 55 milyon 949 min dollarlıq ixrac qeydə alınıb. 2024-cü ildə qeyri neft-qaz məhsulları üzrə ümumi ixracatımızın 3 milyard 356 milyon dollar, Azərbaycan mənşəli qeyri neft-qaz məhsulları üzrə ümumi ixracatın isə 2 milyard 883 milyon dollar olduğunu nəzərə alsaq, Birləşmiş Ştatlar ilə bu sahədə əməkdaşlığımız heç də yüksək paya malik deyil.

Birləşmiş Ştatlara qeyri neft-qaz məhsulları ixracatımıza gəldikdə isə, 2024-cü ildə dünyanın ən güclü iqtisadiyyatına malik ölkəsinə 6 milyon 508 min dollarlıq polimerləşmə nəticəsində əmələ gələn ilkin formalı digər maddələr, 593 min dollarlıq heyvanların bağırsaqları, kisecikləri və mədələri, təzə, soyudulmuş, dondurulmuş məhsullar, 410 min dollarlıq tropik və digər meyvələrin şirələri, 279 min dollarlıq nərə balıqlarının kürüsü, 242 min dollarlıq saflaşdırılmamış, əla növ birinci sıxma zeytun yağı, 177 min dollarlıq meyvələrdən cemlər, meyvə jelesi və mürəbbələr, meyvə pürələri və pastaları və digər məhsulları ixrac etmişik. Göründüyü kimi, Azərbaycanın Birləşmiş Ştatlara qeyri neft-qaz ixracatı böyük məbləğdə olmasa da, mal qrupları üzrə şaxələnib. Deməli, Vaşinqtonun tarifləri Azərbaycanın ABŞ-a ixracata ciddi təsir göstərməsə də ümumi artım dinamikasına təsir edə bilər. Sözsüz, bütün hallarda yeni tarif yeni xərc deməkdir. Yəni, Birləşmiş Ştatlara ümumi ixracatımızdakı artım faizinin azalacağı istisna deyil. Eyni zamanda, Birləşmiş Ştatlara göndərdiyimiz məhsullar daha çox spesifik olduğu üçün 10 faizlik tarif həmin məhsulların bazardakı mövqeyinə təsir göstərməyə bilər. Amma bütün hallarda, yeni tariflər dünya iqtisadiyyatında yeni mərhələnin başlanması demək olacaq".

12_27 IYUI-QARA.qxd 4/3/2025 10:14 PM Page 11





## Müəllimlərin iş yerinin dəyişdirilməsi müsabiqəsi başlayır

***Dövlət ümumi təhsil müəssisələrində müddətsiz müqavilə ilə işləyən müəllimlərin iş yerinin dəyişdirilməsi müsabiqəsi üzrə elektron ərizələrin qəbulu 4-10 aprel tarixlərində keçiriləcək.***

Təhsil İnstitutundan "Unikal"a verilən xəbərə görə, müsabiqədə iştirak etmək istəyən müəllimlər www.miq.edu.az/yerdeyishme linkinə daxil olaraq müraciət edə bilərlər.

Vakansiya seçimi zamanı ilkin olaraq şəhid ailələrinin üzvlərinə vakant yer seçmək imkanı veriləcək.

Həmçinin dövlət ümumi təhsil müəssisələrində çalışan müəllimlərin iş yerinin dəyişdirilməsi Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu istisna olmaqla həyata keçiriləcək. İş yerini bu regionlara (Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu) dəyişmək istəyən şəxslər müəllimlərin işə qəbulu üzrə müsabiqədə iştirak edərək yerdəyişmə edə bilərlər. Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu üzrə müddətsiz əmək müqaviləsi əsasında müəllimlik fəaliyyətini davam etdirən şəxslər bütün ölkə üzrə yerdəyişmə etmək imkanına malik olacaqlar.

Əlavə olaraq, müsabiqə çərçivəsində aşağıda qeyd olunan sosial amillərlə əlaqədar namizədlərin topladıqları bala artım əmsalı tətbiq olunacaq:

-Əri və ya arvadı hərbçi və ya özü şəhid ailəsinin üzvü olan namizədlərin topladıqları bal 1,1 (bir tam onda bir) artım əmsalına vurularaq hesablanır;

-İş yerini özünün faktiki yaşayış yeri və ya qeydiyyatda olduğu ərazidə yerləşən həvəsləndirmə tədbirləri tətbiq edilən müəssisəyə dəyişdirən namizədlərin topladıqları bal 1,05 (bir tam yüzdə beş) artım əmsalına vurularaq hesablanır;

- Həvəsləndirmə tədbirlərinin tətbiq edildiyi müəssisələrdə 3-5 il ərzində fasiləsiz olaraq işləyən müəllimlərin imtahan nəticəsi 1,05, sözügedən müəssisələrdə 5 il və daha artıq müddətdə fasiləsiz işləyən müəllimlərin imtahan nəticəsi isə 1,1 artım əmsalına vurularaq hesablanır.

Sənəd qəbulu 4 aprel saat 11:00-dan 10 aprel saat 11:00-dək davam edəcək.

# Övladlarının şıltaqlığına görə karyerası bitən icra başçıları, rəislər, deputatlar...

## Vəzifəsi ilə xoşagəlməz şəkildə vidalaşan kreslo sahibləri indi haradadırlar, nə işlə məşğuldurlar?

***Məmurlar gündəlik fəaliyyətləri ilə yanaşı bəzi hallarda özlərinin və yaxud ailə üzvlərinin hərəkətləri ilə gündəmə gəlirlər. Bəzi hallarda isə onların ailə üzvlərinin mənfi davranışları ictimaiyyətdə rezonans doğurur. Ən əsası isə bu hallar həmin məmurların vəzifələrini itirməsi ilə nəticələnir. Yaxın tariximizdə bununla bağlı bir çox faktlar mövcuddur.***

Məsələn, İsmayıllı rayonunun sabiq İcra başçısı Nizami Ələkbərovun oğlu Elxan Ələkbərov və qardaşı, keçmiş Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Füzuli Ələkbərovun oğlu Vüqar Ələkbərovun "Hummer" markalı maşını ilə İsmayıllı şəhərindəki "Çıraq" otelindən çıxarkən taksi sürücüsünün maşınını vurmuşdu. Daha sonra yaranan mübahisədə Elxan Ələkbərov sürücüləri söymüş, təhqir eləmişdi.

Hadisədən az sonra dövlət başçısı Nizami Ələkbərovu vəzifəsindən azad edib. Ardınca da Füzuli Ələkbərov nazir postunu itirmişdi.

Daha bir dəhşətli yol qəzasını isə Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) sabiq sədr müavini Mübariz Mədətovun oğlu Xalid Mədətov törətmişdi. Onun törətdiyi qəzada Xalq artisti Ağasəlim Abdullayevin həyat yoldaşı və nəvəsi həyatını itirmişdi. Hadisədən iki gün sonra isə Mübariz Mədətov tutduğu vəzifəsindən azad edilmişdi.

Sabirabad rayon İcra Hakimiyyətinin sabiq başçısı Nazim İsmayılov isə kiçik oğlunun törətdiyi qəza ilə diqqət mərkəzinə gəlmişdi. Hadisə Sabirabad rayon mərkəzində baş vermişdi. Atasının xidməti 54 AA 001 nömrə nişanlı "Prado" avtomobilini idarə edən oğul İsmayılov birdən-birə iki "VAZ 06" markalı "Jiquli"ni əzmişdi. Maşınlardan biri yararsız hala düşmüşdü. Həmin olaydan sonra N.İsmayılovun "vurulacağı" gözlənilsə də, o vəzifəsini bir müddət qorumağı bacarmışdı.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin sabiq müavini general Novruzəli Orucovun oğlu Rüstəm Orucov idarə etdiyi 10-OG-300 nömrəli "BMW" ilə yol hərəkəti qaydalarını kobud şəkildə pozub və avtobus sürücüsü Sənan Səmədovu döymüşdü. Hadisədən sonra Prezidentin sərəncamı ilə Novruzəli Orucov Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin müavini vəzifəsindən azad edilmişdi.

Tərtər rayonunda icra başçısının sabiq müavini Vidadi Bəylərovun oğlu avtoxuliqanlıq edərkən, bir gəncin həyatına son qoymuş, digərinin isə ömürlük şikəst qalmasına səbəb olmuşdu.

Vidadi Bəylərovun oğlu başqa bir gənclə "avtoş"luq edirmiş. "Yarışa" çıxan icra başçısının müavininin oğlu "rəqib"ini sıxışdıraraq, yoldan çıxmağa məcbur edib. Nəticədə isə həmin gənc idarəetməni itirərək yol kənarındakı kanala düşüb. Hadisə nəticəsində aldığı zədələrdən sonra həmin gənc dünyasını dəyişib.

Hadisədən sonra Vidadi Bəylərov vəzifəsindən azad edildi.

Zərdab rayon İcra Hakimiyyətinin sabiq başçısı Lütvəli Babayev də oğluna görə vəzifəsini itirib. Belə ki, 2015-ci ildə onun oğluna etdiyi xuliqanlığa görə 15 sutka inzibati cəza verilmişdi. Mingəçevir şəhər Yol Polisi Şöbəsinin 2015-ci ildə rəisi olan Ələsgər Bədəlovla köhnə ədavəti səbəbindən başçı oğlu 15 sutka həbs olunsa da, cəmi bir həftə sonra azadlığa buraxılmışdı. Lakin bu hadisə Lütvəli Babayevin karyerasını sonlandırmışdı.

Zərdab rayon İcra Hakimiyyətinin başçısının birinci müavini olmuş Allahverdi Səfərovun vəzifədən azad edilmə səbəbi oğlunun avtoxuliqanlığı olub. Belə ki, 2015-ci ilin martın 22-də Ceyhun Səfərov sükan arxasında içkili vəziyyətdə olarkən polis zabitinin sənəd təqdim edilməsi tələbinə tabe olmaqdan imtina etmişdi. Buna görə də, o İnzibati Xətalar Məcəlləsinin 310.1-ci maddəsi ilə inzibati qaydada 5 sutka müddətinə həbs edilmişdi. Bu hadisədən sonra isə, Allahverdi Səfərov vəzifəsi ilə vidalaşmışdı.

Vergilər Nazirliyinin sabiq idarə rəisi Fəxrəddin Əliyevin oğlu Məhərrəm Əliyev mübahisə etdiyi şəxslərə "Vinçestr" markalı tüfəngdən atəş açaraq, onlara ağır bədən xəsarətləri yetirmişdi. Bundan sonra, məmur oğlu və hadisədə iştirakçı olan dostu həbs edilmişdi, atası Fəxrəddin Əliyev isə tutduğu vəzifəsini itirmişdi.

Nərimanov rayon İcra Hakimiyyəti başçısının sabiq müavini Şahmar İbadovun oğlu da avtomobil qəzası törədərək atasının nüfuzunu aşağı salan övladlar sırasındadır. Oğlu Elmir 2017-ci ildə maşınla yaşlı qadını vuraraq öldürməsi ilə gündəmə gəlmişdi. Hadisədən sonra Elmir İbadov 5 il müddətinə həbs edilsə də, 2019-cu ildə bəraət almışdı. Ancaq atası vəzifəsini itirmişdi.

Eks-deputat Ayaz Orucov da oğlunun özbaşınalığına görə vəzifəsini itirənlərdəndir. Oğlu İsmayıl Orucov Binəqədi rayonu, Azadlıq prospektində ağ rəngli "Mercedes Galenvagen" markalı, AZ 10 BB 111 nömrə nişanlı maşından ağ rəngli "Nissan Juke" markalı, AZ 90 NX 685 nömrə nişanlı maşına 8 dəfə atəş açmışdı. Bu hadisədən sonrakı ilk seçkidəcə Ayaz Orucov deputat mandatını itirmişdi.

Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) tabeliyində olan "Lifttəmir" İstehsalat Birliyinin baş direktoru Qüdrət Şükürov isə qızının dəbdəbəli toyu səbəbindən vəzifəsi ilə vidalaşmışdı. Belə ki, 400 min dollarlıq toyla bağlı xəbər ölkədə geniş ajiotaj doğurmuş, Şükürov isə yalnız postundan azad edilməmiş, eyni zamanda "Bakılifttəmir" İstehsalat Birliyindəki qanunsuzluqlarla bağlı Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin 179.4-cü (mənimsəmə və ya israf etmə - xüsusi ilə külli miqdarda ziyan vurmaqla törədildikdə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə, ağır nəticələrə səbəb olduqda) maddələri ilə cinayət işi başlanmışdı. Həmçinin, Q.Şükürovla bağlı Cinayət Məcəlləsinin 193-1 (Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırma) maddəsi ilə əlavə cinayət işi açılmışdı.



Onu da deyək ki, övladlarının şıltaqlığı, təmtəraqlı həyat tərzi səbəbindən postunu itirən sabiq kreslo sahiblərinin çoxu hazırda da işsizdir, onlar daha çox özəl sektorda fəaliyyət göstərir, şəxsi bizneslər ilə məşğul olurlar. Halbuki həmin keçmiş məmurların çoxu gələcəkdə daha yüksək dövlət vəzifələri tutmağa ümid edirdilər. Ancaq onların övladlarının cəmiyyətdə ciddi narazılıq doğuran özbaşına davranışları, lüks həyatı bu ümidlərin də üstündən qalın və qara xətt çəkdi...

***Toğrul Əliyev***

## 5.3.12. azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Azərbaycan özəl sektorun və sahibkarlığın inkişafına yeni qapı açıb

### Ölkədə sahibkarlıq sahəsində aparılan yoxlamaların müddətinin 2026-cı il yanvarın 1-nə qədər uzadılması biznes mühitinə dövlət dəstəyinin bariz nümunələrindən biridir



***Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar sahibkarlığın inkişafına böyük dəstək rolunu oynayır. Ölkəmizdə özəl sektorun inkişafı yaradılmış əlverişli biznes mühitindən qaynaqlanır. Azərbaycanda sahibkarlıq sahəsində aparılan yoxlamaların müddətinin 2026-cı il yanvarın 1-nə qədər uzadılması da biznes mühitinə dövlət dəstəyinin bariz nümunələrindən biridir.***

İqtisadiyyat Nazirliyindən "Unikal" qəzetinin sorğusuna cavabda bildirilib ki, bu ilin ilk iki ayı ərzində 547 layihənin maliyyələşdirilməsinə ayrılmış 32,1 milyon manat güzəştli kredit hesabına 500-dən çox yeni iş yerinin yaradılması nəzərdə tutulur. Güzəştli kreditlər prioritet sahələr üzrə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin inkişafına yönəldilib. Belə ki, verilmiş kreditlərin ümumi məbləğinin 40,5%-i kənd təsərrüfatının, 56%-i sənayenin, 3,5%-i isə digər sahələrin payına düşüb.

Güzəştli kreditlər sözsüz ki, regionların iqtisadi-sosial inkişafına böyük təkan verir. Belə ki, bu ilin 2 ayında güzəştli kreditlərdən yararlanmış sahibkarlıq subyektlərinin əhəmiyyətli hissəsi regionlarda fəaliyyət göstərir. Qeyd edilən dövr ərzində güzəştli kreditdən yararlanmış layihələrin 96,5%-i, verilmiş güzəştli kreditlərin ümumi məbləğinin isə 75%-ə yaxını regionlarda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin payına düşür. Bununla yanaşı, mikro, kiçik və orta bizneslərin dövlətin güzəştli maliyyə mexanizmləri ilə dəstəklənməsi davam etdirilib. Yanvar-fevral aylarında maliyyələşdirilmiş layihələrin 99,6%-i mikro, kiçik və orta sahibkarlıq subyektlərinə məxsusdur.

Ötən illə müqayisə etsək, 2024-cü ildə dövlətin güzəştli vəsaitlərinin əhəmiyyətli hissəsi regionların inkişafına xidmət edən layihələrə yönəldilib. Belə ki, ötən il Fond tərəfindən güzəştli kredit ilə təmin edilmiş layihələrin 94,7%-i, verilmiş güzəştli kredit məbləğinin isə 72%-i regionların payına düşüb.

Dövlət işğaldan azad edilmiş ərazilərdə iqtisadiyyatın dirçəldilməsinə də böyük diqqət göstərir. Nazirlikdən verilən məlumata görə, "İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlara dəstək" mexanizmi çərçivəsində bu ərazilərdə investisiya layihəsi həyata keçirən sahibkarların bank və bank olmayan kredit təşkilatlarından əldə etdikləri kreditlərin 90%-dək hissəsinə dövlət zəmanətinin verilməsinə başlanılıb. Bununla yanaşı, həmin kreditlərin illik faiz dərəcəsinin 10% bəndi 36 aya qədər müddətdə dövlət tərəfindən subsidiyalaşdırılır və kreditin müddətinin yarısından çox olmamaqla, 36 aya qədər güzəşt müddəti tətbiq edilir. 2024-cü ildə bu ərazilərdə sahibkarların zəmanət-subsidiya mexanizminə müraciətləri əsasında 12 layihə üzrə 23,4 milyon manat kreditə 19,2 milyon manat dövlət zəmanəti verilib. Həmçinin bu kreditlər üzrə 6,2 milyon manat həcmində subsidiyanın verilməsi təsdiqlənib. Fond tərəfindən bu mexanizmlə maliyyələşdirilən layihələr sənaye, xidmət, turizm və kənd təsərrüfatı sahələrini əhatə edib. Sözügedən layihələr Şuşa, Xankəndi, Ağdam, Cəbrayıl və Xocalıda icra edilərək iqtisadiyyata töhfə verir.

Bununla yanaşı, sözügedən mexanizmə müraciətlərin operativ qəbul edilməsi məqsədilə "Elektron kredit və zəmanət" informasiya sistemi sahibkarların istifadəsinə verilib. Sahibkarlar heç bir kredit təşkilatına getmədən elektron informasiya sistemi vasitəsilə müraciətlərini ünvanlamaq imkanına sahibdirlər.

İşğaldan azad edilmiş ərazilərdə sahibkarlıq fəaliyyətinin stimullaşdırılması istiqamətində zəmanət-subsidiya mexanizmi ilə yanaşı güzəştli kredit mexanizmi ilə də dəstək tədbirləri davam etdirilib. Ötən il ərzində bu ərazilərdə icra olunan 3 layihə üzrə Fonddan ümumilikdə 8,1 milyon manat güzəştli kredit əldə edilib.

Ümumilikdə 2024-cü ildə Sahibkarlığın İnkişafı Fondu (Fond) tərəfindən güzəştli kreditlə təmin edilən sahibkarlıq subyektlərinin sayı 2023-cü illə müqayisədə 74,7% artaraq 5722-yə çatıb. Verilmiş kredit məbləği isə 28% artaraq 248,1 milyon manat təşkil edib. 2024-cü ildə Fond tərəfindən maliyyələşdirilən layihələrin 99,8%-i, ayrılan güzəştli kredit məbləğinin isə 93,4%-i məhz mikro, kiçik və orta sahibkarlıq subyektlərinin payına düşüb.

Biznes mühitinin yaxşılaşdırılması üçün davamlı islahatların nəticəsi beynəlxalq hesabatlarda qeyd olunur. Dünya İqtisadi Forumunun "Qlobal Rəqabətlilik İndeksi" hesabatında ölkəmiz 11 pillə irəliləyərək 141 ölkə arasında 58-ci mövqedə qərarlaşıb. Hesabata əsasən, Azərbaycan 12 indikatordan 8-i üzrə irəliləyərək MDB ölkələri arasında lider mövqelər sırasında yer alıb, həmçinin Cənubi Qafqaz regionunda birinci olub. Bu hesabatda "biznesin dinamikliyi" üzrə Azərbaycan 8 pillə irəliləyərək dünya sıralamasında 23-cü yerdə qərarlaşıb ki, bununla ölkəmizin biznes mühitinin inkişafı istiqamətində apardığı intensiv islahatlar bir daha təsdiqini tapır.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**




# Şəhid ailəsi üzvlərinə 41 minə yaxın tibbi xidmət göstərilib

***Vətən müharibəsi zamanı şəhid olmuş vətəndaşlarımızın birinci dərəcəli qohumlarının tibbi xidmətlərdən vaxtında yararlanması, müayinə və müalicə işinin təşkili, müvafiq dövlət qurumları ilə birlikdə əlaqəli və çevik xidmətin göstərilməsi istiqamətində görülən işlər davam etdirilir. TƏBİB tərəfindən Vətən müharibəsində şəhid olan insanlarımızın ailə üzvlərinin sağlamlığı daim diqqət mərkəzində saxlanılır.***

TƏBİB-dən verilən məlumata görə, 2025-ci ilin 3 ayı ərzində tibb müəssisələrinə ümumilikdə 3 480 şəhid ailəsi üzvü 11 651 tibbi xidmət üçün müraciət edib. Bu müraciətlər əsasında şəhid ailə üzvlərinə 40 681 müxtəlif adda tibbi xidmət göstərilib.

Tibbi xidmətlər, əsasən, terapevtik, kardioloji, endokrinoloji, nevroloji, laborator-diaqnostik, radioloji və s. kimi istiqamətlərdə olub. "YAŞAT" Fondu tərəfindən Hepatit B, C, onkoloji xəstəliklərdən əziyyət çəkən şəhid ailəsi üzvü olan vətəndaşların dərman vasitələri ilə təmin olunmaları üçün 21 vətəndaş müraciəti araşdırılıb və müvafiq qaydada yönləndirilib.

TƏBİB-in "815", eləcə də İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin "1542" Çağrı mərkəzindən daxil olmuş 250 müraciət araşdırılaraq cavablandırılıb. Qeyd edək ki, hazırda TƏBİB-in tabeliyindəki tibb müəssisələrində şəhid ailələri və o cümlədən müharibə iştirakçıları ilə iş üzrə 164 nəfər koordinator çalışır.

Koordinatorların əsas vəzifəsi tibb müəssisəsinə müraciət edən şəhid ailə üzvləri və o cümlədən müharibə iştirakçılarının müraciətinin ilk olaraq növbəsiz şəkildə qeydiyyata alınması, ixtisaslı həkim müayinəsinin aparılması, həkim təyinatı əsasında instrumental və laborator müayinələrdən növbəsiz keçirilməsinin təmin edilməsi, alınacaq tibbi xidmətin dövlət tibb müəssisələrində olmadığı halda müqaviləli özəl tibb müəssisələrinə icbari tibbi sığorta üzrə Xidmətlər Zərfi çərçivəsində göndərişlə təmin olunmasına dəstək göstərilməsi, şəhid ailələri və əlilliyi olan müharibə iştirakçılarının dərman təminatının aparılması üçün "YAŞAT" Fonduna təqdim olunacaq sənədlərin hazırlanmasına dəstək göstərilməsindən ibarətdir.

Həmçinin koordinatorlar tərəfindən müəyyən vaxt intervalı gözlənilməklə Vətən müharibəsi iştirakçıları və şəhid ailəsi üzvlərinə mütəmadi zənglərin olunması, bu zənglərə əsasən tibbi xidmətə ehtiyacı olanların vaxtında müayinə və müalicə prosedurlarına cəlb olunması təmin edilib.




# AQTA yeni layihəyə start verir

***Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) sağlam qidalanmanın əhəmiyyətini daha geniş kütləyə çatdırmaq və əhalini bu sahədə maarifləndirmək məqsədilə yeni bir təşəbbüsə başlayır.***

"Unikal" xəbər verir ki, "Sözdən əmələ keç, Sağlam qidalanmanı seç!" adlı layihə çərçivəsində müxtəlif silsilə tədbirlərin keçirilməsi nəzərdə tutulur. Layihə istehlakçılara sağlam qidalanma vərdişlərini aşılayacaq. Həmçinin bu təşəbbüsün ölkəmizdə sağlam həyat tərzinə töhfə verməsi hədəflənir.

Kampaniya AQTA, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO), Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) və Nutrisiologiya və Diyetologiya Assosiasiyası (NÜDİA) ilə birgə reallaşdırılacaq. Bu layihə çərçivəsində müxtəlif maarifləndirici tədbirlər təşkil ediləcək, ictimai yerlərdə təşviqat xarakterli kampaniyalar keçiriləcək. Həmçinin sosial mediada sağlam qidalanma ilə bağlı maraqlı informasiyalar yayımlanacaq, mütəxəssislərin iştirakı ilə diskussiyalar aparılacaq.

"Sözdən əmələ keç, Sağlam qidalanmanı seç!" layihəsi hər kəsi sağlam qidalanma haqqında düşünməyə və qida israfını azaltmaq üçün praktik addımlar atmağa çağırır. Layihədən yararlanan hər kəs bu hərəkatın fəal iştirakçısına çevrilə bilər.

"Sözdən əmələ keç, Sağlam qidalanmanı seç!" layihəsi çərçivəsində sağlam qidalanma sahəsində əhəmiyyətli irəlləyişə nail olmaq planlaşdırılır.

# Dövlət Komitəsi: Şuşada qala divarları qorunub saxlanacaq

***Şuşada qala divarları qorunub saxlanacaq.***

Bu barədə APA-nın sorğusuna cavab olaraq Dövlət Şəhərsalma və Arxitektura Komitəsindən bildirilib.

Qeyd edək ki, sosial şəbəkələrdə Şuşanın Baş Planında qala divarlarının yer almadığı iddia olunub, bununla bağlı fotolar da yayılıb.

Dövlət Komitəsindən isə bildirilib ki, Şuşa şəhərinin Baş Plan layihəsi çərçivəsində şəhərin memarlıq üslubuna dair müxtəlif konseptual həllər işlənib: "Bu həllər şəhərin perspektiv inkişaf dövründə icra olunacaq memarlıq layihələri üçün istiqamətverici rol oynayır. Qala divarları da daxil olmaqla, Şuşa ərazisində mövcud olan və dövlət mühafizəsinə götürülmüş bütün daşınmaz tarix və mədəniyyət abidələrinin qorunub saxlanması baş planda nəzərə alınıb".

# AZAL 2025-ci ilin birinci rübünü uğurla başa vurub

***Azərbaycanın milli aviadaşıyıcısı AZAL 2025-ci ilin birinci rübü üzrə fəaliyyətinin yekunlarını elan edib. Aviaşirkət sərnişin axınının yüksək olduğu ilk üç ay ərzində fasiləsiz və rahat sərnişin daşınması fəaliyyətini yüksək səviyyədə təmin edib.***

Bu barədə "Unikal"a "Azərbaycan Hava Yolları" QSC-nin Mətbuat xidmətindən məlumat verilib.

Bu ilin ilk üç ayında 89% uçuşların vaxtında yerinə yetirilməsi göstəricisi ilə 48 istiqamət üzrə 3 718 reys yerinə yetirilib. 2024-cü ilin birinci rübü ilə müqayisədə punktuallıq göstəricisi üzrə 1%, reyslərin sayı üzrə isə 4% artım müşahidə olunub. Qeyd edək ki, 2025-ci ilin mart ayında punktuallıq göstəricisi 93%-ə çatmışdır.

Sözügedən dövr ərzində 865 000 sərnişin daşınıb. Ötən ilin birinci rübündə bu göstərici 811 000 nəfər olub ki, bu da sərnişin sayında 7% artım deməkdir.

Sərnişin axınında ən pik göstərici 12 350 nəfər olmaqla 2025-ci il 12 yanvar tarixində qeydə alınıb. Ötən ilin yanvarın 7-də qeydə alınan ən yüksək sərnişin axını isə 11 200 nəfər olub.

# "Hərbi hissədə yataqxana tikdik, bizə cəmi 440 min manat ödənildi" - "Şlyapa Zahid"in məhkəməsi



***Müdafiə Nazirliyinin sabiq işçisi Zahid Niftəliyevin 42 milyon manatlıq mənimsəmədə ittiham olunması ilə bağlı Dövlət Təhlükəsizliyi Xidmətində (DTX) başlanılmış cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib.***

"Unikal" "Report"a istinadən xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Novruz Kərimovun sədrlik etdiyi prosesdə şahid qismində çıxış edən Yalçın Ələkbərov deyib ki, rəhbəri əcnəbi olan "R.S" şirkətinin ictimaiyyətlə əlaqələr şöbəsində işləyib: "İşlədiyim şirkət tenderdə qalib gəlib və hərbi hissədə yataqxananın tikilməsini həyata keçirib. Şirkətin rəhbəri H.L. olub və o, həm Azərbaycanda, həm də İngiltərədə olub. Müdafiə Nazirliyi ilə müqaviləmiz olub. Razılaşmaya əsasən, işin əvvəlində 440 min manat pul köçürüldü. Daha sonra puldan 2 milyon dollar qalıb və həmin pulun köçürülməsində problemlər yarandı. Bununla bağlı məhkəmə çəkişməmiz oldu, 4 ildən sonra qalib gəldik. Həmin pulun məhkəmə qərarı ilə alınması mümkün oldu".

Daha sonra şahidin ibtidai istintaqa verdiyi ifadə elan olunub. Həmin ifadədən məlum olur ki, tikinti işlərinin görülməsi üçün müqavilənin dəyəri 7 milyon dollar olub. İfadədə qeyd olunub ki, Goranda hərbi hissədə yataqxananın tikilməsi və digər təmir işlərinin görülməsi nəzərdə tutulub.

Daha sonra Zahid Niftəliyevin vəkili Əli Adıgözəlov vəsatətlə çıxış edib. Vəkil Zahid Niftəliyevin 2015-ci ilin 14 aprel, 15 iyul, 3 dekabr, 2016-cı ilin 25 fevral, 7 mart, 15-24 iyun, 30 iyul, 22, 27 və 29 dekabr tarixlərində telefon danışıqlarının, onun əhatə dairəsinin müəyyən edilməsi üçün mobil operatora sorğu verilməsini istəyib.

Hakim bildirib ki, bu məsələyə növbəti iclasda münasibət bildiriləcək.

Məhkəmə prosesi mayın 7-də davam edəcək.

Qeyd edək ki, Zahid Niftəliyev iki il əvvəl rüşvətalma ittihamı ilə həbs edilib, Tərtər Hərbi Məhkəməsi onun əməlini tövsif edərək şərti cəza verib.

Azadlığa buraxıldıqdan sonra o, Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) İstintaq baş idarəsi tərəfindən həbs edilib.

İstintaq dövründə Gəncə Apelyasiya Məhkəməsi dövlət ittihamçısının Tərtər Hərbi Məhkəməsinin hökmündən verdiyi protesti təmin edib. Qərara əsasən Zahid Niftəliyev vəzifə saxtakarlığında və külli miqdarda rüşvət almaqda təqsirli bilinərək 8 il 6 ay azadlıqdan məhrum edilib.

Hazırda DTX-də istintaqı yekunlaşdırılmış iş üzrə hərbçilər arasında "Şlyapa Zahid" ləqəbi ilə tanınan Zahid Niftəliyev öz adına formal şirkət açaraq "AtaBank" ASC-dən götürülmüş 42 milyon manat krediti ödəməməkdə təqsirləndirilir.

İttihama əsasən, Zahid Niftəliyev məqsədyönlü şəkildə həmin məbləğdə kredit almaq məqsədilə "Şahin-CO" adlı şirkət yaradıb, şirkət təsərrüfat və maliyyə vəziyyəti barədə "AtaBank" ASC-yə saxta məlumatlar təqdim etməklə 2016-cı ildə 12 ay müddətinə 42 milyon 470 min 885 manat kredit alaraq, təyinatı üzrə istifadə etməməklə xüsusilə külli miqdarda ziyan vurub.

O, götürülmüş kreditin ləğv prosesində olan "AtaBank" ASC-yə ödənilməsi ilə bağlı məhkəmə qətnamələrini qərəzli olaraq icra etməyib.

Xüsusilə külli miqdarda mənimsəmə cinayətində iştirakı araşdırılan digər şəxslərlə bağlı DTX-də cinayət işi ayrılıb.

# Bazar günü buraxılış imtahanı keçiriləcək



***Aprelin 13-də Bakı şəhərinin Xətai, Nəsimi, Nərimanov, Qaradağ, Suraxanı, Səbail, Gəncə (I hissə), Samux, Yevlax, Qazax, Ağstafa, Şəki, Lənkəran (I hissə), Astara, Yardımlı, Ağdam, Ağcabədi, Şuşa, Xankəndi, Xocalı, Ağsu, Zərdab, İsmayıllı, İmişli, Şirvan, Biləsuvar, Qusar, Siyəzən, Xızı və Şabranda Dövlət İmtahan Mərkəzi tərəfindən ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı keçiriləcək.***

Bu barədə "Unikal"a DİM-dən məlumat verilib.

Qeyd olunub ki, buraxılış imtahanında iştirak edəcək şagirdlər bu linkdən istifadə etməklə özlərinin imtahana buraxılış vərəqəsini, təhsil müəssisələri isə bütün şagirdlərin imtahana buraxılış vərəqələrini çap edə bilərlər.

Şagirdlər iş nömrəsini buradan öyrənə bilərlər.

Buraxılış vərəqəsini çap etmək üçün kompütərə Adobe Reader proqramı quraşdırılmalıdır və brauzerin "Pop-up blocked" sahəsindən qeyd işarəsi götürülməlidir. Şəxsiyyəti təsdiq edən sənədində şəkli olmayan şagirdlər buraxılış imtahanı üçün təhsil müəssisəsi tərəfindən verilməli olan arayışı DİM-in saytından yükləyə bilərlər.

Qeyd edək ki, Gəncə və Lənkəran şəhərlərində yerləşən məktəblərin şagirdlərinin imtahanı 2 imtahan gününə bölünüb. Bu hal yuxarıda müvafiq olaraq, "hissə" adlandırılıb və "keçid" qoyulub. Linkin üzərinə basdıqda qeyd olunan tarixdə hansı məktəblərin şagirdlərinin imtahan verməsi haqqında məlumat açılır.

# İmtahanlarda 33 mindən çox adam iştirak edəcək

***Dövlət İmtahan Mərkəzi tərəfindən 2025-ci il aprelin 6-da bir sıra imtahanlar keçiriləcək.***

"Unikal" xəbər verir ki, keçiriləcək imtahanlar aşağıdakılardır:

1. Əvvəlki illərin məzunları üçün qəbul imtahanının I mərhələsi, V ixtisas qrupu üzrə ali təhsil müəssisələrinə və 11 illik təhsil bazasında kolleclərə qəbul imtahanı;

2. Müsabiqədə buraxılış imtahanında verdiyi xarici dildən fərqli dil üzrə iştirak etmək istəyən cari ilin məzunları üçün əlavə xarici dil imtahanı;

3. Qəbul imtahanını buraxılış imtahanında verdiyi dildən fərqli dil üzrə vermək istəyən cari ilin məzunları üçün əlavə tədris dili imtahanı;

4. Mart ayında keçirilmiş buraxılış imtahanlarında üzrlü səbəblərdən iştirak edə bilməmiş və barəsində Mərkəzə müraciət edilmiş cari ilin XI sinif şagirdləri üçün buraxılış imtahanı;

5. Eksternat qaydasında XI sinif üzrə yekun attestasiyada iştirak etmək istəyən şəxslər üçün buraxılış imtahanı;

6. Buraxılış imtahanlarında müxtəlif səbəblərdən iştirak edə bilməmiş və barəsində Mərkəzə müraciət edilmiş əvvəlki illərin XI sinif məzunları üçün buraxılış imtahanı.

İmtahanlar Bakı, Abşeron, Sumqayıt, Gəncə, Şəmkir, Şəki, Lənkəran, Mingəçevir, Şirvan, Qazax, Ağstafa, Bərdə, Sabirabad, Göyçay, Kürdəmir, Salyan, Cəlilabad, Quba, Xaçmaz və Naxçıvan MR-də keçiriləcək.

İştirakçılar "İmtahana buraxılış vərəqəsi"ni DİM-in saytından çap edib götürə bilərlər. Buraxılış vərəqəsi ilə yanaşı onlara "Yaddaş kitabçası" da təqdim olunur. Burada iştirakçılara imtahan prosesi ilə bağlı vacib tövsiyələr, onların əməl etməli olduqları qaydalar və digər zəruri məlumatlar çatdırılır.

İmtahan saat 11:00-da başlanır.

İmtahanların başlanmasına 15 dəqiqə qalmış - saat 10:45-də buraxılış rejimi başa çatır. Bundan sonra gələn iştirakçılar imtahan binasına buraxılmır.

İştirakçıların imtahan binasına rahat şəkildə daxil olması üçün binaya müxtəlif gəlmə vaxtları müəyyən edilib və imtahan iştirakçısının buraxılış vərəqəsində həmin vaxt göstərilib. Ona görə də imtahan binasına buraxılış vərəqəsində qeyd olunan vaxtda gəlmək tövsiyə olunur.



Abituriyentlər (şagirdlər) imtahana aşağıdakı sənədləri gətirməlidirlər:

- İmtahana buraxılış vərəqəsi;
- Şəxsiyyəti təsdiq edən sənədin əsli:

a) Azərbaycan Respublikasının vətəndaşları (16 yaşı tamam olmayan iştirakçılar da daxil olmaqla) şəxsiyyət vəsiqəsini;

b) əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş icazə vəsiqələrini, qaçqın statusu almış xarici vətəndaşlar və onların ailə üzvləri isə qaçqın vəsiqələrini;

- Şəxsiyyət vəsiqəsində şəkli olmayan iştirakçılar digər sənədlərlə yanaşı, təhsil müəssisəsi tərəfindən verilmiş və fotoşəkilləri yapışdırılmış arayışı (arayışa iştirakçının 3x4sm ölçülü şəkli yapışdırılır və şəkil möhürlə təsdiqlənir).

İmtahanda 33315 (Bakıda 11943, Naxçıvanda 1543, Gəncədə 2242, Şəmkirdə 637, Qazaxda 656, Ağstafada 197, Sumqayıtda 1719, Abşeronda 1181, Mingəçevirdə 1295, Şəkidə 1424, Bərdədə 1781, Göyçayda 732, Kürdəmirdə 508, Şirvanda 911, Sabirabadda 969, Salyanda 1108, Lənkəranda 1726, Cəlilabadda 705, Qubada 343, Xaçmazda 1695) nəfərin iştirakı nəzərdə tutulur.

İmtahanda 70 nəfər sağlamlıq imkanları məhdud (gözdən əlil, serebral iflic, eşitmə əngelli və digər) abituriyent də iştirak edəcək. Bu abituriyentlərin rahat şəkildə imtahan verməsi üçün imtahan binalarında xüsusi zallar ayrılıb, orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə gözdən əlilliyi müəyyən edilmiş şəxslərə isə fərdi nəzarətçilər təyin edilib. Hərəkət məhdudiyyətli şagirdlərin bina və zala daxil olması və hərəkəti üçün də şərait yaradılıb. Bundan əlavə, sağlamlıq imkanları məhdud iştirakçılar üçün ayrılan nəzarətçilərlə xüsusi təlim keçirilib.

İmtahanın idarə olunması üçün 141 ümumi imtahan rəhbəri, 400 imtahan rəhbəri, 3172 nəzarətçi, 418 buraxılış rejimi əməkdaşı və 141 bina nümayəndəsi ayrılıb.

Hazırda imtahanda iştirak edəcək nəzarətçilər, imtahan rəhbərləri, mühafizə əməkdaşları ilə təlim-seminarlar keçirilir. Bütün imtahan binalarına baxış keçirilib, imtahan zallarında şagirdlərin rahat şəkildə imtahan verməsi üçün zəruri şərait yaradılıb.

İmtahana 1 gün qalmış təhlükəsizliyin təmin edilməsi məqsədilə imtahan mərkəzlərinə təkrar baxış da keçirilir və imtahan zalları, giriş-çıxış qapıları, binalar möhürlənməklə Daxili İşlər Nazirliyi Baş Mühafizə İdarəsinin əməkdaşlarının mühafizəsinə verilir.

# Şəhidlik zirvəsinə ucalan Ələkbər



***İkinci Qarabağ müharibəsində Ələkbər Musayev canını Vətənə fəda edəndə ömrünün 21-ci baharını yaşayırdı. Doğma Azərbaycanın hər qarış torpağına, daşına ürəkdən bağlanan bu gənc yağıya qarşı son damla qanına qədər döyüşərək ölümsüzlüyə qovuşdu.***

Bununla da böyük bir xalqın qəhrəmanlıq simvoluna döndü Ələkbər. Dünyaya göz açdığı Cəlilabad rayonu, Mollalı kəndində kiçik də, böyükdə adı yeni, şanlı tariximizə qəhrəman kimi həkk olunan Ələkbəri özlərinə iftixar mənbəyi, qürur yeri bilir, onun keçdiyi həyat yolunu örnək sayırlar. Eləcə dövlət də Cəlilabad elinin qəhrəman oğlunu daim ucalıqda, yükseklikdə saxlamaqdan ötrü ölümündən sonra onu 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeninə, "Vətən uğrunda" və digər medallara layiq görüb.

Əzəl gündən ürəyi doğma Vətəninə, xalqına sevdalanan Ələkbərin atası Əlövsət Musayev də Birinci Qarabağ müharibəsində hər qarış torpaq uğrunda mərdliklə döyüşüb və yağıya qan qusdurub. Hər an erməni dığalardan qisas almaq arzusunda olan Ələkbər məktəbi bitirib ordu sıralarına yollanıb. Cəbhə bölgəsində Vətənin keşiyində durmaqla, həm də məqamı gələndə düşmənlə sona kimi vuruşub qisas alacağına and içib.

Xidmət zamanı Ələkbər Musayevin mərdliyi, cəsurluğu, vətənpərvərliyi ona əsgər və zabitlərin sevgisini qazandırıb. Vətən qarşısında oğulluq borcunu şərəflə yerinə yetirən gənc əsgərin ağır təlimlərdə əldə etdiyi uğurlar həmişə nümunə göstərilib. Başlıca istəyi döyüş meydanında yağını məhv edib, uzun illər işğala məruz qalan müqəddəs yurd yerimiz Qarabağın azadlığı olub. Və həmin günü görmək üçün əsgərlikdən sonra həyatını tam hərbiyə bağlayıb. 2020-ci il sentyabrın 27-də İkinci Qarabağ müharibəsi başlanan gündən ürəyində Vətən məhəbbəti, əlində silah müharibə meydanında odun-alovun içinə girib.

Ən ağır döyüşlərdə Ələkbər rəşadətlə, qəhrəmancasına vuruşub. Gündən-günə savaş zamanı düşmənə vurduğu zərbələrin sayı artıb, qazanılın zəfərlərin hesabına Qarabağımızın çox yerində üçrəngli bayrağımız dalğalanıb. İgid döyüşçü Murovdağ istiqamətində gedən ölüm-dirim savaşda düşmənin kabusuna çevrilməklə tarix yazıb. Yaşının çərçivəsinə sığmayan hünəri hesabına 30 il əsir düşən Vətən torpağımızda daha bir qələbə bayrağımız ucalıb. Təəssüf ki, bu, Ələkbərin son döyüşü olub.

Ələkbər Musayev canını Vətənin yaşaması naminə qurban verməklə əbədi Günəş ömrü qazanıb. Milyonların ürəyinə köç edən Cəlilabadın qəhrəman oğlu qərinələr boyunca hər an ehtiramla xatırlanar.

***Zəfər Orucoğlu,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# Siyəzən rayonunda İnformasiya və rabitə haqqında rəqəmlər

***Siyəzən rayonunda informasiya və rabitə sahəsində fəaliyyət göstərən müəssisələr tərəfindən 2024-cü ildə 2023-cü il ilə müqayisədə göstərilmiş xidmətlərin dəyəri real ifadədə 38,7 faiz artaraq 1475,1 min manat təşkil etmiş, xidmətlərin 1404,2 min manatı (95,2 faizi) əhaliyə göstərilmişdir.***

Əhaliyə göstərilmiş xidmətlərin dəyəri 2023-cü ilə nisbətən 36,7 faiz artmışdır.

Xidmətlərin ümumi həcmində dövlət sektorunun xüsusi çəkisi 85,5 faiz, qeyri-dövlət sektorunun xüsusi çəkisi 14,5 faiz təşkil etmişdir.

***Kamil Xəlilov,***
***Siyəzən Rayon Statistika İdarəsinin rəisi***

## "ABŞ-nin bu qərarı Moskvanı təəccübləndirməyib" - Ryabkov



***"ABŞ prezidenti Donald Trampın Ukraynada münaqişəyə son qoyulması ilə bağlı razılaşma olmadığı halda Rusiya neftinə ikinci dərəcəli rüsumların tətbiqi ehtimalı ilə bağlı bəyanatları Moskvanı təəccübləndirməyib".***

"Unikal" xəbər verir ki, bunu Rusiya xarici işlər nazirinin müavini Sergey Ryabkov International Affairs" jurnalına müsahibəsində deyib.

"Əslində, biz təəccüblənmədik. Bu, əvvəllər də olub. Və birinci administrasiyanın üslubu da çox şey deyirdi", - Ryabkov qeyd edib.

O, Vaşinqtonun arzuladığı sürətli irəliləyişin olmadığı təqdirdə ritorikanın dəyişə biləcəyinə və bunun da bəyanatların əksi olacaq hərəkətlərə səbəb ola biləcəyinə diqqət çəkib.

***Gülayə Mecid***

## "Seçim Ermənistanın əlindədir" - Rusiya XİN



***Eyni zamanda Aİİ və Aİ-də olmaq mümkün deyil, lakin seçim Ermənistanın əlindədir. Yalnız o, harada olmağın daha sərfəli olduğuna qərar verməlidir.***

"Unikal" xəbər verir ki, bunu Rusiya xarici işlər nazirinin müavini Mixail Qaluzin deyib.

"Ümid edirik ki, Aİİ üzvlüyünün bütün faydaları və Aİİ-dən ayrılma nəticəsində yaranan itkilərin miqyası Ermənistan cəmiyyətinə izah ediləcək ki, erməni cəmiyyətinin reallığa obyektiv baxışı olsun", - deyə o, "RİA Novosti" agentliyinə müsahibəsində bildirib.

Diplomat həmçinin vurğulayıb ki, Aİİ bərabər hüquqlu dövlətlər birliyidir, Aİ isə rusofobik rəvayətlərin reallıqdan qopmuş Brüssel bürokratları tərəfindən diktə olunduğu bir strukturdur.

***Ağarza Elçinoğlu***

## Meloni İtaliyada bütün tədbirləri ləğv etdi

***İtaliyanın baş naziri Giorgia Meloni ABŞ administrasiyasının tariflərinə qarşı bir sıra əks tədbirlər hazırlamaq üçün aprelin 3-də planlaşdırılan tədbirləri ləğv edib.***

"Unikal" xəbər verir ki, bu barədə "Nova" agentliyi mənbəyə istinadən məlumat yayıb.

İtaliyanın baş naziri Ağ Evin tətbiq etdiyi tariflərin heç bir tərəfə yaraşmayan səhv olduğunu bildirib.

Xatırladaq ki, ABŞ prezidenti Donald Tramp Çin və Avropa ölkələri də daxil olmaqla bir sıra ölkələrə qarşı "güzgü rüsumları" tətbiq edən fərman imzalayıb.

***Gülayə Mecid***

## Paşinyan Qrono ilə Azərbaycanla sülh prosesini müzakirə etdi

***Ermənistanın baş naziri Nikol Paşinyan Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Maqdalena Qrononu qəbul edib.***

"Unikal" xəbər verir ki, bu barədə erməni KİV-ə hökumətin mətbuat xidmətindən məlumat verilib.

Həmsöhbətlər Cənubi Qafqaz regionundakı vəziyyət, xüsusilə Ermənistan-Azərbaycan sülh prosesi ətrafında fikir mübadiləsi aparıblar. Hər iki tərəf "Ermənistan və Azərbaycan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında" saziş layihəsinin razılaşdırılmasının vacibliyini vurğuladılar. Bununla bağlı Paşinyan Ermənistan hökumətinin sülh gündəminə sadiqliyini vurğulayıb.

Qrono sazişin imzalanmasının vacibliyini vurğulayaraq, bunun regionda uzunmüddətli sülh və sabitliyin təmin olunmasına töhfə verəcəyinə əminliyini ifadə edib.

***Ağarza Elçinoğlu***

# Tramp Azərbaycandan gedən mallara rüsum tətbiq etdi

***ABŞ milli təhlükəsizliyi təhdid edən ticarət balanssızlığına görə fövqəladə vəziyyət elan edib.***

"Unikal" xəbər verir ki, bu barədə Amerika prezidenti Donald Tramp bəyan edib. "Bu təhlükənin mənbəyi ABŞ-dən kənarda, əsas ticarət tərəfdaşlarının daxili iqtisadi siyasətlərində və qlobal ticarət sistemindəki struktur disbalansındadır. Bununla da ölkədə fövqəladə vəziyyət elan edirəm", - deyə o qeyd edib. Tramp vurğulayıb ki, ABŞ-nin əsas ticarət tərəfdaşları ilə iqtisadi münasibətləri son dərəcə balanssızlaşıb.




Buna görə də ABŞ lideri Azərbaycan (10%) da daxil olmaqla 185 ölkədən idxal olunan mallara rüsumlar tətbiq edib.

Qərara görə, baza dərəcəsi 10 faiz olacaq. Hər bir ölkə üçün əlavə rüsumlar tətbiq olunacaq. Xüsusilə, Avropa İttifaqından gələn mallar amerikalılar üçün 20 faiz bahalaşacaq.

Tramp tariflərdən əldə edilən gəliri ölkənin milli borcunu ödəmək üçün istifadə edəcəyinə söz verib: "İndi çiçəklənmək və vergilərimizi azaltmaq və milli borcumuzu ödəmək üçün trilyonlarla dollarlardan istifadə etmək növbəsidir və hər şey çox tez baş verəcək".

Ağ Evin rəhbəri ölkələrin Amerika mallarına tətbiq etdiyi rüsumların və Vaşinqtonun cavab tədbirlərinin sadalandığı cədvəli də göstərib. Ən yüksək tariflər Kambocada (49 faiz), Vyetnamda (46), Taylandda (36), Çində (34), Tayvanda (32) və Cənubi Afrikada (30) aşkar edilib.

Rusiya isə Trampın siyahısında yer almayıb. Siyahıda Belarus, İran, Kanada və Meksika da yoxdur. Daha sonra ABŞ-nin maliyyə naziri Skott Bessent izah edib ki, Moskva ABŞ-nin tariflər siyahısında deyil, çünki sanksiyalar səbəbindən ABŞ onunla ticarət etmir.

Tramp hətta Sakit Okeandakı kimsəsiz Heard və McDonald adalarına da rüsumlar tətbiq edib. Avstraliyaya aid olan bu vulkanik birləşmələrdə heç bir bitki örtüyü belə yoxdur və pinqvin koloniyaları yaşayır. Amerika liderinin bu ərazidən hansı konkret mallara 10 faizlik rüsum tətbiq etməyə qərar verdiyi açıqlanmır.

O, həmçinin idxal olunan avtomobillərə, yüngül yük maşınlarına və avtomobil hissələrinə 25 faiz rüsum tətbiq edən sərəncam imzalayıb.

***Ağarza Elçinoğlu***

# "Diz çöküb yalvardım..." - Paşinyan

***"Sürücülük vəsiqəsi alanda məşhur jurnalist idim, diz çöküb yalvardım, imtahana qoymadılar".***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan hökumətin iclasında deyib.

O, Ermənistanda bütün sektorları əhatə edən kadr böhranından danışarkən bldirib ki, dünən "Real Ermənistan" proqramı çərçivəsində vətəndaşlarla görüşüb: "Vətəndaşlardan soruşdum ki, Ermənistanda avtomobil idarə edənlərin 70 faizinin bizim standartlara cavab verən avtomobili idarə etmək üçün lazımi bacarıqları var? Hamı dərhal reaksiya verdi ki, "95 faiz. Dedim ki, zalda əziyyət çəkib imtahan verib sürücülük vəsiqəsi alan varmı? Heç kimdən səs çıxmadı.

Mən sürücülük vəsiqəsi alanda məşhur jurnalist idim, diz çöküb yalvardım, yenə də imtahana buraxmadılar. Dedilər ki, tez çıx get buradan, bizim səninlə işimiz yoxdur".



"Orduda problem yarananda hamı Müdafiə Nazirliyini ittiham etməyə başlayır, amma bunu araşdırsaq görərik ki, bu problemlər orduda formalaşmayıb, mülki həyatdan parça-parça gəlib və orada yığılıb", deyən Baş nazirin sözlərinə görə, cəmiyyət çox vaxt bütün məsuliyyəti Müdafiə Nazirliyinin üzərinə qoyur: "Orduda vəziyyəti dəyişmək üçün artıq çox gecdir, çünki problemlər daha erkən, uşaq bağçası və məktəbdə başlayır. Ermənistanın təhsil sistemi uşaqları psixoloji hazırlıqla təmin etmir, nəticədə onlar zəif iradəli və həyata hazırlıqsız böyüyürlər. Bu problem ordu islahatlarından daha genişdir və o, məktəbəqədər təhsil müəssisələrindən başlayaraq bütün təhsil sistemi səviyyəsində həll edilməlidir".

***Ağarza Elçinoğlu***

# İmamoğluna görə Fidanla görüşünü ləğv etdi

***Fransanın Strasburq şəhərində Avropa Parlamenti (AP) "Türkiyədə demokratik təzyiqlər və Əkrəm İmamoğlunun həbsi" mövzusunda plenar iclas keçirib.***

"Unikal" xəbər verir ki, sessiyada çıxış edən Avropa Komissiyasının Genişlənmə üzrə komissarı Marta Kos fəaliyyəti dayandırılmış İstanbul Böyükşəhər Bələdiyyəsinin (İBB) sədri Əkrəm İmamoğlunun həbsinə reaksiya vermək üçün Antalya Diplomatiya Forumunda iştirakını və xarici işlər naziri Hakan Fidanla görüşünü ləğv etdiyini açıqlayıb.



Türkiyənin AB-yə namizədlik prosesini vurğulayan Kos, Türkiyədən bu çərçivədə demokratik norma və standartlara əməl etməsini gözlədiklərini ifadə edib.

***Gülayə Mecid***

12_27 IYUI-QARA.qxd 4/3/2025 10:15 PM Page 16



# Millimiz FIFA reytinqində yenə gerilədi

***Azərbaycan millisi FIFA reytinqində iki pillə geriləyib.***

"Unikal" ali futbol qurumunun rəsmi saytına istinadən xəbər verir ki, Fernandu Santuşun baş məşqçisi olduğu kollektiv hazırda 1160 xalla 119-cu sırada qərarlaşıb.

Buna yığmanın beynəlxalq yoldaşlıq oyunlarında Haiti (0:3) və Belarusa (0:2) uduzması səbəb olub.



Qeyd edək ki, son dünya çempionu Argentina (1886.16) birinci pillədə qərarlaşıb. Bir mövqe irəliləyən İspaniya (1854.64) ikincidir. Azərbaycan yığmasının DÇ-2026-nın seçmə mərhələsindəki rəqiblərindən Fransa (1852.71) üçüncü sıraya düşüb. Ukrayna (1559.81) 25-ci yerdə qalıbsa, dörd pillə geriləyən İslandiya (1336.55) 74-cüdür.

# "Sabah" klubu 4000 manat cərimələndi

***AFFA İntizam Komitəsi "Sabah" klubunu 4000 manat cərimələyib.***

"Unikal" xəbər verir ki, buna məşqçi Aleksey Antonyukun "Neftçi"yə qalib gəldikləri (2:1) Azərbaycan Kubokunun yarımfinal mərhələsinin ilk oyununda hakimlər briqadasını təhqir etməsi səbəb olub.

02.04.2025-ci il tarixində Azərbaycan Kubokunda ? finalın "Araz-Naxçıvan" - "Qarabağ" oyununda "Araz-Naxçıvan" klubunun 4 futbolçusu sarı vərəqə aldığı üçün "Araz-Naxçıvan" klubu 700 manat cərimə edilsin (maddə 37);

02.04.2025-ci il tarixində Azərbaycan Kubokunda ? finalın "Neftçi" - "Sabah" oyununda "Neftçi" klubunun azarkeşləri tərəfindən pirotexniki vasitədən istifadə edildiyinə görə "Neftçi" klubu 1500 manat cərimə edilsin (maddə 52.2);

02.04.2025-ci il tarixində Azərbaycan Kubokunda ? finalın "Neftçi" - "Sabah" oyununun 90+3-cü dəqiqəsində "Sabah" klubunun məşqçisi Aleksey Antonyuk hakimləri təhqir etdiyinə görə birbaşa qırmızı vərəqə aldığı üçün 3 oyun




şərti olmaqla 5 oyun cəzalansın, "Sabah" klubu 4000 manat cərimə edilsin. Sınaq müddəti 3 ay təyin edilsin (maddə 43.4, 32);

# Olimpiya çempionlarımız Olimpiadadan sonra ilk dəfə...

***Aprelin 23-dən 27-dək Monteneqronun paytaxtı Podqoritsa şəhərində böyüklər arasında cüdo üzrə Avropa çempionatı keçiriləcək.***

Turnirdə Azərbaycanı 12 çəki dərəcəsində ümumilikdə 16 cüdoçu (9 kişi, 7 qadın) fərdi yarışlarda təmsil edəcək.

Qeyd edək ki, Azərbaycan Avropa çempionatları tarixində ilk dəfə böyüklər arasında qarışıq komanda yarışında da iştirak edəcək.



Həmçinin, Olimpiya çempionlarımız Hidayət Heydərov və Zelim Kotsoyev Paris Olimpiadasından sonra ilk dəfə tatami üzərinə çıxacaqlar.

Milli komandanın üzvləri performans direktor və böyüklərdən ibarət yığmanın baş məşqçisi Riçard Trautman, böyük məşqçilər Elçin İsmayılov, Robert Kravçik və Slavko Tekiç, qadınlardan ibarət yığmanın baş məşqçisi Amina Abdullatif və məşqçi Saşa Herkenrat-Vimarın rəhbərliyi ilə tatamiyə çıxacaqlar.

# Dani Alveşin bəraətinə etiraz edəcəklər

***Kataloniya prokurorluğu Braziliya millisinin və "Barselona"nın keçmiş müdafiəçisi Dani Alveşə təcavüzlə bağlı bəraət qazandıran qərardan narazıdır.***

QOL.az xəbər verir ki, bu barədə "Mundo Deportivo" məlumat yayıb. Kataloniya prokurorluğu qərara görə İspaniya Ali Məhkəməsinə apellyasiya şikayəti verəcək.

Prokurorluğun fikrincə, braziliyalının məhkumluğunun ləğvi İspaniya Cinayət Məcəlləsinin konstitusiya norma və prinsiplərini pozur.

Qeyd edək ki, İspaniya Ali Məhkəməsi Barselonadakı gecə klubunda bir qadına təcavüz etməkdə ittiham edilən Dani Alveşə təqsirsizlik prezumpsiyası prinsipinə əsaslanaraq bəraət qazandırıb.

2023-cü il yanvarın 20-də Dani Alveş həbs olunmuş, 2024-cü ilin martında onun üçün 4,5 illik müddətinə azadlıqdan məhrumetmə cəzası seçilmişdi. Alveşin hüquq komandası qərardan apellyasiya şikayəti verib və nəticədə o, ötən ayın sonunda 1 milyon avro girov müqabilində sərbəst buraxılıb.

# "Qarabağ"ın oyunçusu nikbin danışdı

***"Düşünürəm ki, ümumilikdə biz rəqibdən daha yaxşı oynadıq. İlk hissədə pis deyildik. Fasilədən sonra daha üstün görünürdük".***

QOL.az saytına açıqlamasında bu sözləri "Qarabağ"ın qapıçısı Fabian Buntiç Azərbaycan kubokunun yarımfinalında "Araz-Naxçıvan"a qarşı keçirilən ilk görüş barədə danışarkən deyib.

O, 0:1 hesablı məğlubiyyəti belə şərh edib: "Araz-Naxçıvan"ın müdafiə xəttini yarmaq mümkün olmadı. Buna görə də uduzduq. Cavab matçında daha yaxşı oynamalı və finala adlamalıyıq".

Maraqlıdır ki, bu mövsüm ölkə çempionatında hər 3 görüşdə "Araz-Naxçıvan"ı üstələyən "Qarabağ" kubokda rəqibinə uduzdu. Xorvat əsilli almaniyalı qolkiper bunu hər oyunun fərqli olması ilə əlaqələndirib: "Bu, kubok görüşü idi. "Araz-Naxçıvan" bizə qarşı vuruşdu. Tam gücləri ilə mübarizə apardılar. İlk dəqiqələrdən çox çalışırdılar, istəkli idilər. Təbii ki, belədə işimiz daha da çətinləşdi".

28 yaşlı qolkiper penalti epizodunu şərh etmək istəməyib: "Bu barədə heç nə deyə bilmərəm. Mən epizoda uzaq idim".

F.Buntiç cavab görüşündən də söz açıb və nikbin danışıb: "Təbii ki, qalib gəlməyi, mərhələ adlamağı hədəfləyirik. Kuboku qazanmaq qarşımıza qoyulan hədəflərdən biridir. Ona görə də sona qədər mübarizəmizi davam etdirəcəyik. Cavab oyununda hər şey mümkündür. İnanıram ki, istəyimizə çatacağıq".



# "Barselona" "Atletiko" səddini keçdi - Finalda "El-Klassiko" olacaq

***İspaniya Kral Kubokunda ikinci finalçı bəlli olub.***

"Unikal" xəbər verir ki, yarımfinal oyununda "Atletiko Madrid" və "Barselona" komandaları üz-üzə gəlib. Matç Kataloniya təmsilçisinin 1:0 hesablı qələbəsi ilə yekunlaşıb. İlk görüşdə isə heç-heçə qeydə alınmışdı - 4:4.

Bununla da "Barselona" adını finala yazdırıb və "Real Madrid"ə rəqib olub.

# "Bunun adı biabırçılıqdır" - "Sabah"ın futbolçusu

***"Sabah"ın futbolçusu Coy-Lens Mikels ötən gün "Neftçi" ilə matçda yaşanan qalmaqallı epizoddan danışıb.***

Almaniyalı hücumçu "Qafqazinfo"ya açıqlamasında matça əlavə olunmuş dəqiqələrdə ona qarşı edilən kobudluq zamanı rəqib qapısına təyin edilməyən penalti epizoduna münasibət bildirib:

"Mən topu ötürdükdən sonra rəqib futbolçu açıq-aşkar mənə qarşı kobud oynadı. Həmin anda hakimin harada dayandığını bilmirəm, amma nə üçün VAR-a çağırılmadığını da başa düşmürəm. Nə üçün VAR mövcuddur? Monitorun qarşısında oturub epizodu geriyə ötürərək 11 metrlik cərimə zərbəsini təyin etmək o qədər çətindir? Bunun adı biabırçılıqdır. Mənə maraqlıdır ki, hansı bəhanələri deyəcəklər".

Qeyd edək ki, Azərbaycan Kubokunun yarımfinalında keçirilən "Neftçi" - "Sabah" matçı qonaqların 2:1 hesablı qələbəsi ilə başa çatıb.

# Messinin komandası 1/4 finalın ilk oyununda uduzdu

***Argentinalı futbolçu Lionel Messinin çıxış etdiyi ABŞ-ın "İnter Mayami" komandası KONKAKAF Çempionlar Kubokunun 1/4 final mərhələsində ilk oyununu keçirib.***

"Unikal" xəbər verir ki, Mayami təmsilçisi səfərdə "Los-Anceles"lə qarşılaşıb. Görüş meydan sahiblərinin 1:0 hesablı qələbəsi ilə yekunlaşıb.

Oyunda yeganə qolu 57-ci dəqiqədə Neytan Ordas vurub.

Qonaq komandanın heyətində Lionel Messi, uruqvaylı hücumçu Luis Suares, ispaniyalı müdafiəçilər Serxio Busqets və Jordi Alba 90 dəqiqə meydanda olublar.

Qeyd edək ki, cavab matçı aprelin 9-dan 10-na keçən gecə Floridada keçiriləcək.

# "Liverpul" derbidə qələbə qazandı

***İngiltərə Premyer Liqasının 30-cu turunda bu gün Mersisayd derbisi oynanılıb.***

"Unikal" xəbər verir ki, lider "Liverpul" evdə "Everton"la qarşılaşıb.

"Liverpul" bu oyunda 1:0 hesablı qələbəyə sevinib və aktivinə daha 3 xal əlavə edib. Görüşdəki yeganə qolu 57-ci dəqiqədə Dioqo Yota vurub.

Hazırda Arne Slotun komandasının 73 xalla 1-ci, "Everton"un isə 34 xalla 15-cidir.